RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 52 (8931) CÜMƏ AXŞAMI, 10 mart 2022-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az



## Azərbaycan qadını milli dövlət quruculuğu işinin fəal iştirakçısıdır

### 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan qadını milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və nəsildən-nəslə çatdırılmasında daim fədakarlıqlar göstərmiş, xalqımızın hazırkı mədəni simasının müəyyənləşməsində müstəsna rol oynamışdır. Ən dərin fikirləri dolğun ifadə qüdrətinə malik doğma dilimizin əsrlərin sınağından alnıaçıq çıxaraq bu gün də bütün gözəlliyi və zənginliyi ilə yaşamasında onun əməyi misilsizdir.

Milliliklə müasirliyin vəhdətini yüksək mənəviyyatının ayrılmaz tərkib hissəsinə çevirən Azərbaycan xanımları yeni tarixi şəraitdə geniş sosial-mədəni fəaliyyətləri sayəsində böyük ictimai nüfuz qazanmış və cəmiyyət həyatına həmişə bir dinamizm qatmışlar. Onlar adlarını uca tutduqları maarifpərvər sələflərinin yolunu şərəflə davam etdirmiş, müsəlman Şərqində qadınlar arasında mədəniyyətin, incəsənətin, təhsilin və elmin bir çox sahələrində ilk addımları atmaqla yenilikçi, qabaqcıl fikirli və tərəqqipərvər olduqlarını əməli surətdə sübuta yetirmişlər.

Xüsusi vurğulamaq istəyirəm ki, Azərbaycan qadını milli dövlət quruculuğu işinin fəal iştirakçısı kimi müstəqillik illərindəki nailiyyətlərimizin zirvə nöqtəsinə yüksəlməyimiz və parlaq Qələbə sevinci yaşamağımız naminə var qüvvəsini səfərbər etmişdir. Göz açıb azad gördüyü yurdunu ana qədər müqəddəs bilən, milli ideallara sadiq gənc nəsli də o məhz öz mənəvi gücü, polad iradəsi hesabına yetişdirmiş, tarixin hökmü ilə ədalətin zəfər çalacağına və haqq işimizin qalib gələcəyinə həmin nəslin qəlbində sarsılmaz inam duyğusu aşılamışdır. Azərbaycan qadınının müasir dövlətçiliyimizə ən dəyərli töhfəsi olan bu nəsil 44 günlük Vətən müharibəsində rəşadəti ilə xalqımızın mübarizlik rəmzinə dönərək ümidləri tam doğrultmuşdur.

Mən torpaqlarımızın müdafiəsi və işğaldan qurtarılması zamanı canlarından keçmiş igid övladlarımızın xatirəsini bir daha ehtiramla yad edir, şəhid analarına və xanımlarına, döyüşlərdə sağlamlığını itirmiş hərbçilərimizin ömür-gün yoldaşlarına, xalq üçün layiqli oğullar böyüdən əsgər analarına xoş arzularımı yetirirəm.

Əminəm ki, Azərbaycan qadını bundan sonra da ölkəmizdəki böyük quruculuq işlərində əzmkarlıqla çalışacaq, müstəqillik salnaməmizi yeni müvəffəqiyyətləri ilə zənginləşdirəcəkdir.

*Dərin hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2022-ci il*

## Prezident İlham Əliyev Beynəlxalq Qadınlar Günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial şəbəkə hesablarında 8 Mart - Beynəlxalq Qadınlar Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda "8 Mart - Beynəlxalq Qadınlar Günü" sözləri yer alıb.




## Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan qadınlarını təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə rəsmi "İnstaqram" səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Əziz qadınlar! Sizin hər birinizə möhkəm cansağlığı, tükənməz sevgi, sevinc dolu günlər və səadət arzulayıram".






# Qarabağ və Zəngəzur yer üzündə cənnət nümunəsi olacaq

## BMT İlham Əliyevin reallaşdırdığı layihələrə tam dəstək verərək əməkdaşlığa hazır olduğunu bəyan edir

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları geniş tikinti-quruculuq meydanına çevrilib. İşğaldan azad olunan torpaqlarımızda yol, enerji infrastrukturu yenidən qurulur, elektrik və su xətləri çəkilir, müasir yaşayış kompleksləri tikilir. Lakin br fakt xüsusi olaraq vurğulamalıyıq ki, bütün bu işləri Azərbaycan heç kimdən yardım almadan, yalnız öz gücünə həyata keçirir. Heç bir beynəlxalq təşkilat və fond bu işdə Azərbaycana yardım etmir.**

Bunu Prezident İlham Əliyev dəfələrlə dünyanın aparıcı siyasi və iqtisadi təşkilatlarının rəhbərləri, nümayəndələri ilə görüşdə səsləndirib. Son olaraq isə İlham Əliyev martın 5-də BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şəriflə görüşündə bu məsələyə bir daha toxunub və təəssüfünü bildirib.

*Ardı 2-ci səh.*



## Dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq

### Azərbaycan Fransa ilə ikitərəfli münasibətlərdə bu təməl prinsiplərinə daim sadiqdir

**Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Prezident İlham Əliyev Fransa Prezidenti Emmanuel Makrona məktub ünvanlayıb.**

*Bax: səh. 2*

## *Emmanuel MAKRON:* "Azərbaycan Prezidenti kimi ilk səfərlərinizi Fransaya etdiyinizi unutmamışıq"

**Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Fransa Prezidenti Azərbaycan Prezidentinə təbrik məktubu ünvanlayıb.**

*Bax: səh. 2*

## Azərbaycan və İtaliya arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib

**Martın 8-də İtaliya Respublikasının Nazirlər Şurasının Sədri Mario Draqi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı bu il Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu bildirilib. Bu müddət ərzində iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən məmnunluq ifadə olunub.

Söhbət əsnasında Azərbaycan və İtaliya arasında iqtisadi, ticarət və enerji sahələrində səmərəli əməkdaşlığın qurulduğu bildirilib. Enerji sahəsində əməkdaşlıqda "Cənub qaz dəhlizi" və onun tərkib hissəsi olan Trans-Adriatik təbii qaz boru kəmərinin əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, Azərbaycan İtaliyanın neft təchizatında 1-ci, qaz təchizatında isə 3-cü yeri tutur.

Telefon danışığı zamanı mədəniyyət və təhsil sahələrində həyata keçirilən uğurlu əməkdaşlıq layihələri müzakirə olunub və bu xüsusda Bakıda İtaliya-Azərbaycan universitetinin yaradılmasının əhəmiyyəti vurğulanıb.

Tərəflər iki ölkə arasında strateji tərəfdaşlığın gücləndirilməsi məqsədilə yüksəksəviyyəli siyasi dialoqun və qarşılıqlı səfərlər mübadiləsinin davam etdirilməsinə razılıqlarını bildiriblər.

Telefon söhbəti zamanı regional mövzular, o cümlədən Ukraynada cərəyan edən hadisələr ətrafında fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## Böyük Britaniya Azərbaycan iqtisadiyyatına ən böyük sərmayə qoyan ölkədir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib.**



*Ardı 2-ci səh.*

## Azərbaycan dövləti vətəndaşına sahib çıxır

### İlham Əliyevin yürütdüyü siyasətin mərkəzində vətəndaşlarımızın rifahı ilə yanaşı təhlükəsizliyi də dayanır

Azərbaycanda dövlət siyasətinin təməlində ilk növbədə insan amilinin dayandığını çoxsaylı aspektlərdən göstərmək mümkündür. İqtisadi və sosial islahatların məzmunu, gərgin situasiyalarda, ekstremal şəraitlərdə hakimiyyət orqanlarının göstərdiyi çevik reaksiyalar insan amilinin nə qədər prioritet olduğunu nümayiş etdirir.

Elə son olaraq Prezident İlham Əliyevin sərəncamına əsasən əmək pensiyaçılarının sosial müdafiəsinin gücləndirilməsi də insan amilinə xidmət edən siyasətin təcəssümü idi.

### Ali diqqətin təcəssümü

Son həftələrdə dünyanın diqqətinin yönəldiyi Ukraynada olan azərbaycanlıların təxliyəsi ilə bağlı görülən işlər bir daha göstərdi ki, Azərbaycan dövləti öz vətəndaşlarının taleyinə xüsusi həssaslıqla yanaşır. Hərbi əməliyyatlar səbəbindən yaşayışın təhlükəli olduğu bu ölkədə olan vətəndaşlarımızın təxliyəsi hələ fevral ayından sürətlə həyata keçirilməyə başlanıldı.

Azərbaycanla Ukrayna arasındakı əlaqələrin tarixi böyükdür.



*Ardı 4-cü səh.*

# Böyük Britaniya Azərbaycan iqtisadiyyatına ən böyük sərmayə qoyan ölkədir

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu il Azərbaycanla Böyük Britaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu məmnunluqla xatırladı, bu münasibətlə Böyük Britaniyanın Baş naziri Boris Conson tərəfindən ona ünvanlanmış səmimi məktubu xüsusilə qeyd etdi və özünün də Böyük Britaniyanın Baş nazirinə diplomatik münasibətlərimizin 30 illiyi münasibətilə səmimi məktub göndərdiyini dedi.

Dövlətimizin başçısı Azərbaycan ilə Böyük Britaniya əlaqələrinin yüksək səviyyədə olduğunu və strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini vurğulayaraq ölkələrimiz arasında qarşılıqlı inam və etimadın olduğunu qeyd etdi.

Prezident İlham Əliyev Böyük Britaniyanın Azərbaycanın əsas ticarət tərəfdaşı və iqtisadiyyatımıza ən böyük sərmayə qoyan ölkə olduğunu bildirdi, iqtisadi, ticarət əlaqələrinin genişlənməsini, enerji sahəsində əməkdaşlıq və bu sahədə bp-nin ölkəmizdə uğurlu fəaliyyətini xüsusilə vurğuladı.

Prezident İlham Əliyev Böyük Britaniya şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizdə fəaliyyət göstərməsini, xüsusilə şəhərlərin planlaşdırılması, minalardan təmizləmə və digər sahələrdə uğurlu fəaliyyətini qeyd etdi.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson diplomatik münasibətlərimizin qurulmasının bu il 30 illiyinin qeyd edildiyini məmnunluqla vurğuladı və bu münasibətlə Böyük Britaniya Baş nazirinin dövlətimizin başçısına ünvanlandığı məktuba diqqət çəkdi.

Baronessa Emma Nikolson iqtisadi, ticarət, enerji sahələrində ölkələrimiz arasında əməkdaşlıq və bu xüsusda bp-nin Azərbaycandakı fəaliyyəti və onun genişləndirilməsi, bp ilə ölkəmizin bərpaolunan enerji sahəsində əməkdaşlığının inkişaf etdirilməsi məsələlərinə toxundu.

İşğal dövründə ermənilərin şəhər və kəndlərimizdəki tarixi, mədəni, dini abidələri və tikililəri vəhşicəsinə dağıtdıqlarını, torpaqlarımızda vandallıq əməlləri törətdiklərini deyən Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın daxili imkanlar hesabına həyata keçirdiyi genişmiqyaslı quruculuq prosesi barədə məlumat verdi. Həmin ərazilərdə, ilk növbədə infrastrukturun yaradılması, yollar, elektrik enerjisi, minalardan təmizləmə istiqamətində intensiv fəaliyyətin aparıldığını bildirdi.

Prezident İlham Əliyev ölkəmizin enerji siyasətində bərpaolunan enerjiyə xüsusi əhəmiyyət verildiyini, artıq bir çox xarici şirkətlərlə bu sahədə əməkdaşlığın qurulduğunu deyərək bp ilə də enerji sahəsindəki ənənəvi əməkdaşlığa əsaslanaraq bərpaolunan enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğuladı.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi, ticarət əlaqələrinin genişləndirilməsi, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Görüşdə regional məsələlər və Ukrayna ətrafında cərəyan edən hadisələr müzakirə olundu.

# Emmanuel MAKRON: "Azərbaycan Prezidenti kimi ilk səfərlərinizi Fransaya etdiyinizi unutmamışıq"

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Fevralın 21-də Fransa və Azərbaycan öz diplomatik münasibətlərinin qurulmasının 30 illiyini qeyd edirlər. Bu münasibətlə mən Sizə səmimi təbriklərimi ünvanlamaq istəyir və ümid edirəm ki, Azərbaycan öz müstəqilliyini, inkişafını və ölkələrimizin bağlı olduğu dünyəviliyi möhkəmləndirməyi bundan sonra da davam etdirəcəkdir.

Bu illər ərzində Fransa və Azərbaycan iqtisadi, mədəni və təhsil sahələrində tərəfdaşlığa əsaslanan, Fransa və Azərbaycan arasında dostluğun bünövrəsi sayılan Fransa-Azərbaycan Universiteti və Bakıdakı fransız liseyi kimi ümumi uğurlarla əlamətdar olan möhkəm əlaqələr qura bilmişlər. Fransa İnkişaf Agentliyi infrastruktur və kommunikasiya sahələrində layihələr həyata keçirməkdədir.

Prezident Heydər Əliyevin Prezident Fransua Mitteranla 1993-cü ildə imzaladığı dostluq, anlaşma və əməkdaşlıq haqqında müqavilə əsasında qurulan bu münasibətlər həm də mənim çox bağlı olduğum ən yüksək səviyyədə siyasi dialoqa əsaslanır. Azərbaycan Prezidenti kimi ilk səfərlərinizi Fransaya etdiyinizi unutmamışıq.

Fransa həm də ATƏT-in Minsk qrupunun həmsədri kimi, regionda ədalətli, davamlı sülh və rifah mənbəyi üçün səyləri dəstəkləmək öhdəliyinə tam sadiqdir.

Mən Sizinlə və Ermənistanın baş naziri ilə Avropa İttifaqı Şurası sədrinin yanında apardığınız son mübadilələrimizin konstruktiv ruhunu alqışlayıram. Fransa müzakirə etdiyi bütün mövzularda irəliləyişə nail olmaq üçün öz dəstəyini verməyə hazırdır. Mən qorunmalı olan irs məsələsi və UNESCO-nun missiyası barədə toxunduğumuz mövzu haqqında da xüsusilə düşünürəm.

Fransa, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında Şərq tərəfdaşlığı və iştirak etdiyimiz 15 dekabr Zirvə görüşündə müəyyən edilmiş prioritetlər çərçivəsində əlaqələri gücləndirmək arzusundadır.

Ümidvaram ki, ikitərəfli əlaqələrimiz bundan sonra da dostluq və etimad ruhunda möhkəmlənəcəkdir. Əmin olun ki, Fransa buna fəal şəkildə töhfəsini verəcəkdir.

Cənab Prezident ən yüksək ehtiramlarımı qəbul etməyinizi xahiş edirəm.

***Emmanuel MAKRON,***
***Fransa Respublikasının Prezidenti***

# Dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq

## Azərbaycan Fransa ilə ikitərəfli münasibətlərdə bu təməl prinsiplərinə daim sadiqdir

### Fransa Respublikasının Prezidenti zati-aliləri cənab Emmanuel Makrona

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar mənə ünvanladığınız məktuba görə Sizə təşəkkür edirəm. Mən də öz növbəmdə Sizi və Fransa xalqını bu əlamətdar tarix münasibətilə ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

1993-cü ildə Azərbaycan ilə Fransa arasında imzalanmış dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Müqavilə ikitərəfli münasibətlərimizin təməl prinsiplərini və inkişaf xəttini müəyyən etmişdi. Azərbaycan bu prinsiplərə daim sadiq qalaraq Fransa ilə bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına çalışmışdır.

Ötən dövr ərzində Azərbaycan-Fransa əlaqələri dinamik inkişaf etmiş, səmərəli əməkdaşlıq münasibətləri formalaşmış və bir çox sahələrdə yaxşı nailiyyətlər əldə olunmuşdur. Bu gün Fransa şirkətləri Azərbaycanın iqtisadi həyatında fəal iştirak edir, Bakıda Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir. Mehriban Əliyevanın bilavasitə rəhbərliyi altında ölkələrimiz arasında mədəni əlaqələrin inkişafına göstərilən diqqəti xüsusilə qeyd etmək istəyirəm. İnanıram ki, iqtisadiyyat, mədəniyyət, təhsil və digər sahələrdə qarşılıqlı maraq doğuran əməkdaşlığımızın inkişafı bundan sonra da xalqlarımızın və ölkələrimizin rifahına xidmət edəcəkdir.

Müxtəlif sivilizasiyalara, mədəniyyətlərə və dinlərə mənsub xalqların tarixən birgə və mehriban yaşadığı Azərbaycan Respublikası xalqın iradəsi və maraqları əsasında müstəqil siyasət yürüdən dövlətdir. Azərbaycan öz tarixi, əzəli torpaqlarının Ermənistan tərəfindən işğalına son qoyaraq ərazi bütövlüyünü təmin etmiş, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmişdi. Otuz illik təcavüzün bitməsi yeni geosiyasi reallığa uyğun olaraq regionda əməkdaşlıq üçün imkanlar yaratmışdı. Bu baxımdan nəqliyyat-kommunikasiya xətlərinin açılması bölgəmiz üçün böyük iqtisadi perspektivlər vəd edir.

Hesab edirəm ki, Avropa İttifaqının hazırkı sədri qismində Fransanın təşəbbüsü ilə dördlü formatda keçirdiyimiz görüş və apardığımız danışıqlar regionda etimadın gücləndirilməsi, davamlı sülhün və sabitliyin təmin olunması üçün əlverişli imkan açmışdı.

Azərbaycan sülhün tərəfdarıdır. Biz ərazi bütövlüyü, suverenlik və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı kimi beynəlxalq hüququn fundamental baza prinsipləri əsasında Ermənistanla sülh sazişi üzrə danışıqlara başlamağa hazırıq. Ermənistanın bu məsələdə konstruktiv mövqe nümayiş etdirməli olduğunun vacibliyini vurğulayaraq Fransanın regionun sülh gündəliyini dəstəkləyəcəyinə ümidvarıq.

Hörmətli cənab Prezident!

Hazırda Azərbaycanın qarşısında duran əsas vəzifə çoxillik işğal nəticəsində dağıdılmış, tamamilə viran qoyulmuş ərazilərin bərpasıdır. Biz azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi prosesinə Fransanın verdiyi dəstəyi yüksək qiymətləndiririk. Eyni zamanda Ermənistan-Azərbaycan münaqişəsi zamanı 4000-ə yaxın itkin düşmüş soydaşımızın taleyinin aydınlaşdırılması məsələsinə ölkənizin göstərdiyi diqqəti alqışlayırıq.

UNESCO-nun üzvü kimi və onun Nizamnaməsinə uyğun olaraq Azərbaycan təşkilatın missiyasını öz ərazisində qəbul etmək niyyətini son onilliklər boyu rəsmi şəkildə dəfələrlə bəyan etmişdi. UNESCO-nun missiyasını üzv ölkənin suverenlik hüququna hörmət əsasında ölkəmizdə tezliklə görməyə hazırıq.

Azərbaycan Avropa İttifaqı ilə əməkdaşlığın şaxələndirilməsinə, eləcə də üzv ölkələr ilə əlaqələrin və dialoqun genişlənməsinə böyük önəm verir. Qarşıdan gələn aylarda ölkənizin Avropa İttifaqına sədrliyi çərçivəsində bu əlaqələrin daha da möhkəmlənəcəyinə inamımızı ifadə edirik.

Dərin hörmət və ehtiramlarımı izhar edirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2022-ci il*

# Azərbaycan qadınlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-mədəni həyatında səmərəli fəaliyyətlərinə görə və 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağayeva Lyubov Aleksandrovna
Axundova Nəcibə Novruz qızı
Alızadə Sevinc Əsgərxan qızı
Əfrasiyabova Dilarə Paşa qızı
İmanova Mehriban Təyyar qızı
Qasımova Bahar Komandir qızı
Qəhrəmanova Yaqut Qəhrəman qızı
Mirzəzadə Gülqədəm Abdulalı qızı
Muxtarova Dilarə Əliəsgər qızı
Rzayeva Yazgül Həsənəli qızı
Salamova Gülnaz Mustafa qızı
Salehova Almas Yaqut qızı
Tağıyeva Leyla Çingiz qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2022-ci il*

# D.K.Kaseinovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

TÜRKSOY-da səmərəli fəaliyyətinə və təşkilatın üzv dövlətləri arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə Düsen Kurabay oğlu Kaseinov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 mart 2022-ci il*

# Qarabağ və Zəngəzur yer üzündə cənnət nümunəsi olacaq

## BMT İlham Əliyevin reallaşdırdığı layihələrə tam dəstək verərək əməkdaşlığa hazır olduğunu bəyan edir

*Əvvəli 1-ci səh.*

### Beynəlxalq fondların Qarabağ və Zəngəzurda baş verənlərə göz yumması təəssüf doğurur

Öncə onu vurğulayaq ki, Maimuna Mohd Şərif BMT-nin Məskunlaşma Proqramı - UN-HABİTAT-ın icraçı direktoru olaraq bərabərlik, yoxsulluğun azaldılması və urbanizasiya dəyərlərini təşviq edir.

Azərbaycana səfəri çərçivəsində diplomat işğaldan azad edilmiş əraziləri ziyarət edib. Ağdamda olan qonaq erməni barbarlığını, dağıntının miqyasını öz gözləri ilə görüb.

Prezident İlham Əliyev isə görüşü zamanı qonağın diqqətinə çatdırıb ki, işğaldan azad olunmuş bütün ərazilərdə vəziyyət eynidir. Hər şey dağıdılıb, məhv edilib, vandalizm, barbarlıq nəticəsində şəhərlər, kəndlər mövcud deyil. On minlərlə insanın məskəni olmuş şəhər indi dağıntılar içindədir. Bu, işğal illəri ərzində ermənilər, erməni cinayətkar rejimi tərəfindən törədilib. Demək olar ki, otuz il ərzində Azərbaycan mədəniyyəti və tarixinin izini silmək üçün şəhərlərimiz, kəndlərimiz, tarixi və dini abidələrimiz qəsdən, planlaşdırılmış şəkildə dağıdılıb.

Prezident diplomatın diqqətinə çatdırıb ki, bu gün Azərbaycan dövləti qarşısında böyük çağırışlar var. Qalib dövlət müharibədən sonra yalnız öz gücünə şəhər və kəndlərini, tarixi-dini abidələrini bərpa edir. Amma indiyə qədər beynəlxalq təşkilatlardan, dünyanın heç bir ölkəsindən beynəlxalq yardım olaraq bir dollar belə alınmayıb: "Gördüyümüz bütün işləri öz hesabımıza edirik. Biz bunu etməyə davam edəcəyik. Lakin, əlbəttə qəribədir ki, torpaqların azad edilməsindən demək olar il yarım keçməsinə baxmayaraq, heç kim bizə kömək etməyə hazır deyil. Yalnız sözlər, başqa heç nə. Nə donor konfransı ilə bağlı ideyalar, nə də maliyyə dəstəyi var. Hətta məşhur qeyri-hökumət təşkilatları, məşhur beynəlxalq fondlar Qarabağ və Zəngəzurda baş verənlərə göz yumur. Bu, təəssüf doğurur".

### Azərbaycan təzminat tələb edir

Azərbaycan Prezidenti qətiyyətlə vurğuladı ki, öz iqtisadi qüdrətinə arxalanan dövlət əraziləri bərpa edəcək, Qarabağ və Zəngəzurda yer üzündə cənnət nümunəsi yaradacaq. Amma yenə də beynəlxalq təşkilatların, donor təşkilatların, böyük fondların bu etinasızlığı qəbuledilməzdir.

İlham Əliyev ümidvar olduğunu bildirdi ki, BMT öz qurumları və öz kommunikasiya kanalları vasitəsilə Azərbaycanı dəstəkləyəcək, ölkəmizin dəstəyə ehtiyacı olduğu mesajını lazımi yerlərə çatdıracaq.

Əlbəttə ki, bütün bunlar həm də erməni barbarlığının dünyaya təqdimatı deməkdir. Bəşəriyyət Qarabağ və Zəngəzurda baş verənləri seyr etməli deyil, Ermənistanın cəzalandırılmasını tələb etməlidir. Prezident də dedi ki, təcavüzkar beynəlxalq səviyyədə də cəzalandırılmalıdır: "Əlbəttə ki, təzminat məsələsi var. Biz təzminat tələb edirik. Bu məsələni beynəlxalq arenada qaldırmaqda bizə kömək etmək üçün artıq beynəlxalq təsisatları, hüquqşünas qrupları cəlb etmişik. Beləliklə, planlar bundan ibarətdir. Düşünürəm ki, gələn ilin proqramı üçün biz əməkdaşlığımızı yaranmış bu mühüm reallığa uyğunlaşdırmalıyıq".

İlham Əliyev düşmənin minaladığı ərazilərlə bağlı da məlumat verərək dedi ki, hazırda minalar səbəbindən keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə geri qaytarılması mümkün deyil. Əfsuslar olsun ki, indiyədək bizdə minalar səbəbindən 200-dən çox insan həlak olub və ya ağır yaralanıb. Ərazilərin bu minalardan təmizlənməsi böyük təcrübə və texniki imkanlar tələb edir.

Bütün ərazilər minalardan təmizlənməli və bundan sonra öz torpağına geri qayıdacaq insanlar üçün layiqli şərait yaradılmalıdır. Azərbaycan dövləti bu prosesi də öz gücünə reallaşdıracaq. Bu, işğaldan, dağıntıdan və başqa ciddi problemlərdən əziyyət çəkən digər ölkələr üçün yaxşı nümunə olacaq.

### Qarabağ və Zəngəzurun iqtisadi potensialı iqtisadiyyata böyük dividendlər gətirəcək

Ölkəmizə ilk dəfə səfər etdiyini deyən BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərif İlham Əliyevin rəhbərliyi ilə Azərbaycandakı inkişaf proseslərinin, şəhər planlaşdırma və yüksəliş konsepsiyasının onda dərin təəssürat hissi yaratdığını deyib və və qeyd edib ki, Ağdam şəhərinin inkişaf və urbanizasiya planı ilə yaxından tanış olub.

Maimuna Mohd Şərif Ağdam da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə səfər emissiyalı müasir eko-şəhər konsepsiyasının tətbiq edilməsini məmnunluqla vurğulayıb.

Diplomat qeyd edib ki, BMT-nin Məskunlaşma Proqramı dünyanın müxtəlif ölkələrində postmünaqişə şəraitində şəhərlərin qurulmasına, dayanıqlı şəhər inkişaf konsepsiyalarının yaradılmasına öz təcrübəsi ilə dəstək verir və bu xüsusda Azərbaycan hökuməti ilə də sıx əməkdaşlığa hazırdır.

Göründüyü kimi, BMT Azərbaycan Prezidentinin Qarabağ və Şərqi Zəngəzurda reallaşdırdığı layihələrə tam dəstək verir və əməkdaşlığa hazır olduğunu bildirir. Çünki hər bir beynəlxalq təşkilat bu gün İlham Əliyevin işğaldan azad olunan torpaqlarımızda həyata keçirdiyi bütün layihələrdən xəbərdardır və Azərbaycanın bu prosesdə heç kimdən yardım almadığını yaxşı bilir. Ancaq prosesə seyrçi yanaşma, imkan olsa belə, Azərbaycana heç bir yardım göstərməmək sadəcə təəssüf doğrur. Yəqin ki, yaxın gələcəkdə Azərbaycan da həmin qurumlarla əməkdaşlığına, münasibətlərinə yenidən baxmaq barədə düşünəcək.

Görünən odur ki, Azərbaycanın iqtisadi qüdrəti yüksəldikcə, o, doğma torpaqlarını yağı tapdağından təkbaşına azad etdiyi kimi, orada cənnət yaratmağı da bacaracaq və dünyaya nümunə kimi göstərəcək. Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialı ölkə iqtisadiyyatına böyük dividendlər gətirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Azərbaycan Respublikası Hökuməti ilə İspaniya Krallığı Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında" Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə İspaniya Krallığı Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında" 2021-ci il dekabrın 14-də Madrid şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2022-ci il*

# Ordumuzun Xocalı və Goranboy rayonlarında yerləşən mövqeləri atəşə tutulub

Martın 8-i günorta saatlarından başlayaraq martın 9-u səhər saatlarınadək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri ordumuzun Xocalı və Goranboy rayonlarında yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təxribatların qarşısını almaq məqsədilə bu istiqamətlərdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb. Hazırda həmin istiqamətlərdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

"Azərbaycan Ordusu heç bir halda mülki infrastrukturu hədəfə almır, yalnız qanunsuz erməni silahlı dəstələrinin mövqelərinə dəqiq zərbələr endirir", - deyə Müdafiə Nazirliyinin məlumatında qeyd olunub.

# Ötən həftə 129,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, martın 1-dən 5-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 25, tank əleyhinə 39 mina və 36 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 129,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Dostluq və strateji tərəfdaşlıq xarakteri daşıyan münasibətlər

**Martın 9-da Milli Məclisin Sədri Sahibə Qafarova Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb.**



Qonağı salamlayan Sahibə Qafarova onunla əvvəlki görüşlərini məmnunluqla xatırladıb. O, Emma Nikolsonun ölkəmizə bir neçə dəfə səfər etdiyini vurğulayaraq, bu səfərin ikitərəfli münasibətlərin daha da dərinləşməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Bu il Azərbaycanla Böyük Britaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu söyləyən Milli Məclisin Sədri iki ölkə arasında münasibətlərin dostluq və strateji tərəfdaşlıq xarakteri daşıdığını bildirib.

Sahibə Qafarova ölkələrimiz arasındakı əlaqələrin inkişafında parlamentlərin müsbət rolunu vurğulayaraq qeyd edib ki, ali qanunverici orqanlarımızın üzvləri arasında xoş münasibətlər mövcuddur. Bu münasibətlər parlamentlər arasında həm ikitərəfli, həm də çoxtərəfli formatda əməkdaşlığımızda özünü büruzə verir. Hər iki ölkə parlamentlərində işçi qrupları uğurla fəaliyyət göstərirlər.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson da iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək 30 il ərzində ikitərəfli əlaqələrdə əldə olunmuş nailiyyətlərdən danışıb. O, parlamentlərarası münasibətlərin də uğurlu inkişafından razılığını bildirib, deputatlarımızın Avropa Şurası Parlament Assambleyası çərçivəsində əməkdaşlığını qeyd edib.

Görüşdə 44 günlük Vətən müharibəsində Azərbaycan torpaqlarının işğaldan azad olunmasından sonra regionda yaranmış yeni vəziyyət, azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri haqqında məlumat verilib. Milli Məclisin Sədri bildirib ki, hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərində öz imkanları hesabına genişmiqyaslı infrastrukturun yaradılması, yeni müasir yolların salınması, elektrik enerjisi ilə təminat işləri ilə yanaşı, ərazilərin minalardan təmizlənməsi istiqamətində də tədbirlər həyata keçirir. Bu işlər məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz şəkildə qayıtması üçün çox vacibdir. Görüşdə iqtisadi, ticarət, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının 2022-ci ilə dair İş Planı təsdiq edilib

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğat, maarifləndirmə tədbirlərinin səmərəliliyinin artırılması və görülən işlərin davamlılığının təmin olunması məqsədilə Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədov tərəfindən Komissiyanın 2022-ci ilə dair İş Planı təsdiq edilib və icraya yönəldilib.

Dövlət Komissiyasının işçi qrupundan AZƏRTAC-a bildiriblər ki, İş Planının elektron forması Komissiyanın saytının "Sənədlər" bölməsində yerləşdirilib.

İş Planında Dövlət Komissiyasının "802 - Qaynar xətt" telefon xidmətinə daxil olan vətəndaş müraciətləri ilə bağlı müvafiq tədbirlərin operativ qaydada görülməsi, narkotikdən sui-istifadə edənlərin aşkarlanması metodlarının təkmilləşdirilməsi, narkotik asılılığın patogenezinə əsaslanan yeni müalicə üsullarının işlənilməsi üzrə tədqiqatların aparılması, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının ölkəyə gətirilməsinin və qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi məsələləri əksini tapıb. Planda həmçinin regionlarda müzakirələrin aparılması, vətəndaş cəmiyyəti institutlarının iştirakının genişləndirilməsi, belə tədbirlərə din xadimlərinin cəlb edilməsi, müvafiq qanunvericiliyin müddəalarının və tələblərinin əhaliyə izah edilməsi məsələlərinə də xüsusi yer verilib.

İl ərzində bu sahədə fəaliyyət göstərən beynəlxalq və regional təşkilatlarla, həmsərhəd və digər dövlətlərlə əməkdaşlığın inkişaf etdirilməsi, təhsil müəssisələrində zəruri təbliğat işinin aparılması, sağlam həyat tərzinin təbliği və narkomanlığın ziyanı ilə bağlı teatr tamaşalarının, bədii, sənədli və animasiya filmlərinin hazırlanması, antinarkotik təbliğat işlərinin təşkilində könüllülərin potensialından səmərəli istifadə edilməsi, tanınmış ictimai və din xadimlərinin, incəsənət və idman ustalarının iştirakı ilə kütləvi tədbirlərin təşkili də nəzərdə tutulur.

Bundan başqa, İş Planında 26 İyun - Ümumdünya Narkotiklər Əleyhinə Mübarizə Günü ilə əlaqədar silsilə tədbirlərin keçirilməsi, narkomanlıqla mübarizə sahəsində maarifləndirmə tədbirlərinin aparılması məqsədilə təlimçilərin hazırlanması, narkomanlıq və onun fəsadları barədə kütləvi informasiya vasitələrində daha dolğun məlumatların, müəllif yazılarının hazırlanması üçün narkomanlığın spesifik cəhətləri ilə bağlı jurnalistlər üçün təlim kurslarının təşkili və digər mühüm məsələlər də yer alıb.

# Beynəlxalq Qadınlar Günü münasibətilə şəhid analarının və ailə üzvlərinin iştirakı ilə tədbir keçirilib



Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevin rəhbərlik etdiyi komitə tərəfindən 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə şəhid analarının və ailə üzvlərinin iştirakı ilə tədbir keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə 300-dən çox şəhidimizin anaları, bacıları, xanımları, ailə üzvləri, eləcə də qazilər, Milli Məclisin deputatları Jalə Əhmədova, Cavid Osmanov, ilahiyyatçı alim Hacı Şahin Həsənli və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri açan Milli Məclis Sədrinin müavini Adil Əliyev şəhid ailələrinin xanım üzvlərini təbrik edərək, Uca Allahdan onlara uzun ömür, cansağlığı arzulayıb. Bildirib ki, məhz qəhrəman analarımızın böyütdüyü igidlərimiz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun tərkibində qəhrəmanlıqla döyüşərək bizə tarixi Zəfəri bəxş ediblər. Vətən müharibəsində qazandığımız tarixi Qələbə nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa olunub, düşmənin 30 ilə yaxın işğal altında saxladığı tarixi torpaqlarımız 44 günə azad edilib. Bu gün ölkəmizdə Vətənimizin bütövlüyü uğrunda öz canlarını fəda edən qəhrəmanlarımızın ailə üzvlərinə, qazilərə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən ən yüksək diqqət və qayğı göstərilir.

Milli Məclisin deputatı, parlamentin Gənclər və idman komitəsinin üzvü Jalə Əhmədova, ilahiyyatçı alim Hacı Şahin Həsənli çıxış edərək şəhidlik mərtəbəsinin ucalığından, qəhrəmanlarımızın göstərdiyi şücaətdən danışıb, şəhidlərimizin analarını, qadın ailə üzvlərini bayram münasibətilə təbrik ediblər. Şəhid anaları, xanımları, ailə üzvləri çıxışlarında tədbirin təşkilinə görə razılıqlarını bildirərək, göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürlərini ifadə ediblər.

Tədbir şəhid övladlarının və mədəniyyət xadimlərinin şeir və ifaları ilə yekunlaşıb.

# Ukraynadakı vəziyyətlə əlaqədar bu ölkədəki Azərbaycan vətəndaşlarının təxliyəsi davam edir

Ukraynadakı vəziyyətlə əlaqədar bu ölkədəki Azərbaycan vətəndaşlarının qonşu dövlətlərin ərazisindən keçməklə respublikamıza təxliyəsi davam edir.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, martın 8-dək Azərbaycana 4375 nəfər (son sutka ərzində 1237 nəfər olmaqla) təxliyə olunub. Onların arasında çarter reysləri ilə təxliyə edilənlər 2298, quru yolu ilə təxliyə olunanlar isə 2077 nəfər təşkil edib.

Vətəndaşlarımızın təxliyəsi üçün Azərbaycan hökuməti tərəfindən əksəriyyəti Rumıniyanın Yassi şəhərindən olmaqla, Rumıniya və Polşa ərazisindən indiyədək 12 çarter reysi təşkil olunub. Azərbaycan vətəndaşlarının həm çarter reysləri, həm də qonşu ölkələrin ərazisindən keçməklə avtobuslarla təxliyəsi davam edir.

* * *

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ölkəmizin Ukraynadakı səfirliyinin diplomatlarının Kiyevdən Lvova köçürülməsi barədə məlumat yayıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən daxil olan məlumatda bildirilib ki, Ukraynadakı vəziyyətlə əlaqədar paytaxt Kiyevdə artan təhlükəsizlik şəraitində bu şəhərdə fəaliyyət göstərən Azərbaycan diplomatları Lvov şəhərinə köçüblər.

Müvəqqəti olaraq Lvovda fəaliyyət göstərəcək diplomatlarımız Ukraynadakı azərbaycanlıların müraciətləri, o cümlədən təxliyəsi məsələsi ilə bağlı fəaliyyəti davam etdirəcək.

Səfirliklə aşağıdakı qaynar xətlərlə əlaqə saxlamaq olar:
+380 73 5050000;
+380 99 408 99 43.

* * *

Ukraynadakı vəziyyətlə əlaqədar bu ölkə ərazisində daimi və müvəqqəti yaşayan, səfərdə olan Azərbaycan vətəndaşlarının qonşu ölkələrin ərazisindən keçməklə respublikamıza təxliyəsi davam edir.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, martın 7-dək Azərbaycana 3138 nəfər təxliyə olunub. Onların arasında çarter reysləri vasitəsilə təxliyə olunanların sayı 1908, quru yolu ilə ölkəmizə gətirilənlərin sayı isə 1263 nəfər təşkil edir.

Vətəndaşlarımızın təxliyəsi üçün Azərbaycan hökuməti tərəfindən əksəriyyəti Rumıniyanın Yassi şəhərindən olmaqla, Rumıniya və Polşa ərazisindən indiyədək 10 çarter reysi təşkil olunub. Bu reyslərlə əsasən qadınlar, uşaqlar, yaşlılar, xəstələr və digər həssas qrupa daxil olan vətəndaşlarımızın təxliyəsinə üstünlük verilib.

Vətəndaşlarımızın həm çarter reysləri, həm də qonşu ölkələrin ərazisindən keçməklə avtobuslarla təxliyəsi davam edəcək.

***AZƏRTAC***

# Azərbaycan və İranın xarici işlər nazirləri arasında telefon danışığı olub

Martın 8-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovla İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı olub.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə qarşılıqlı təbriklərini ifadə ediblər.

Tərəflər martın 9-10-da ölkəmizdə keçiriləcək Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının növbəti iclasının yüksək önəmini qeyd ediblər. Bu xüsusda İranın rəsmi heyəti ilə yanaşı, Azərbaycana bir qrup iş adamlarının səfər etməsi məmnunluqla vurğulanıb. Nazirlər həmçinin regional məsələləri, eyni zamanda Ukraynadakı vəziyyəti müzakirə ediblər.

Nazirlər İranın nüvə proqramı üzrə Vyanada aparılan danışıqların gedişatı, habelə qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparıblar.

# Azərbaycan və Böyük Britaniya arasında enerji əməkdaşlığına dair məsələlər müzakirə edilib

Energetika Nazirliyində energetika naziri Pərviz Şahbazov ilə Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi xanım Baronessa Emma Nikolson arasında görüş olub.



AZƏRTAC xəbər verir ki, görüşdə enerji bazarlarında mövcud vəziyyət və iki ölkənin enerji əməkdaşlığına dair məsələlər müzakirə edilib. Enerji bazarlarında sabitlik üçün dayanıqlı həllər kimi təchizatın diversifikasiyasının və karbohidrogen sektoruna diqqət yetirilməsinin vacibliyi qeyd edilib. "Cənub qaz dəhlizi"nin töhfələri və genişlənmə perspektivlərindən bəhs edilib. Həmçinin Azərbaycan ilə Böyük Britaniya arasında enerji əməkdaşlığının inkişafında BP şirkəti ilə tərəfdaşlıq əlaqələrinin rolu, şirkətin neft-qazla yanaşı, bərpaolunan enerji layihələrində iştirakının əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması, xarici şirkətlərlə külək və günəş enerjisi layihələrinin reallaşdırılması, həmçinin Xəzər dənizinin külək enerjisi potensialından istifadə istiqamətində görülən işlər də nəzərdən keçirilib.

Görüşdə London şəhərində keçirilməsi nəzərdə tutulan Azərbaycan və Böyük Britaniya arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın növbəti iclasından irəli gələn məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# TÜRKPA-nın iclasında Azərbaycanın qlobal və regional əməkdaşlığın inkişafı istiqamətində irəli sürdüyü təşəbbüslərdən bəhs olunub

Martın 9-da ilk dəfə olaraq TÜRKPA ölkələri parlamentlərinin xarici əlaqələr komitələri sədrlərinin onlayn iclası keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, ölkəmizi bu tədbirdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov təmsil edib.

"Xarici siyasət əməkdaşlığında parlamentlərin rolu" mövzusuna həsr edilən iclasa Türkiyə Böyük Millət Məclisinin (TBMM-in) Xarici əlaqələr komitəsinin sədri Akif Çağatay Kılıç moderatorluq edib. İclasın açılışında TÜRKPA-nın Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Komissiyasının sədri Erol Kaya (Türkiyə) və TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Ər giriş nitqləri söyləyiblər.

Tədbir TÜRKPA ölkələri parlamentlərinin xarici əlaqələr komitələri sədrlərinin mövzu ilə bağlı çıxışları ilə davam edib.

Mövzu ilə bağlı ilk söz Səməd Seyidova verilib. TÜRKPA ölkələri arasında xarici siyasət əməkdaşlığında parlamentlərin rolundan söz açan deputat çıxışında qlobal və regional miqyasda sülhün qorunması üçün birgə fəaliyyətin əhəmiyyətindən bəhs edib.




Beynəlxalq münasibətlərdə hüquqa, hüquq bərabərliyinə əsaslanmağın vacibliyinə diqqət çəkən S.Seyidov TÜRKPA ölkələri arasında xarici siyasət əməkdaşlığının dünyada sülhün möhkəmləndirilməsinə verəcəyi töhfələrlə bağlı fikirlərini səsləndirib. O, Azərbaycanın qlobal və regional əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində irəli sürdüyü təşəbbüslərdən və atdığı addımlardan danışıb.

Sonra Qazaxıstan Parlamenti Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Aygul Kuspan, Qırğızıstan Joqorku Keneşinin Beynəlxalq münasibətlər, müdafiə, təhlükəsizlik və miqrasiya məsələləri komitəsinin sədri Çingiz Aydarbekov, Macarıstan Milli Məclisinin Xarici işlər komitəsinin sədri Jolt Nemet, Özbəkistan Respublikası Ali Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Dilorom Fayziyeva çıxış ediblər. Komitə sədrləri TÜRKPA ölkələrinin qarşılaşdıqları təhlükəsizlik məsələlərini, sülhə qarşı təhdidləri dəyərləndiriblər, beynəlxalq sülhün gücləndirilməsi, dövlətlərarası dialoqun genişləndirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikirlərini bildiriblər.

Sonda TÜRKPA-nın Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının sədri Erol Kaya və TBMM-in Xarici əlaqələr komitəsinin sədri Akif Çağatay Kılıç tədbirə yekun vurublar və iştirakçıların səsləndirdikləri fikirlərin münaqişələrin dinc yolla həlli üçün parlament əməkdaşlığının genişləndirilməsinə töhfə verəcəyinə inamlarını bildiriblər.

# Polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışı keçirilib



Martın 9-da Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Sıra baxışında kütləvi informasiya vasitələrində, o cümlədən Daxili İşlər Nazirliyinin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində verilmiş elana uyğun olaraq nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 161 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb. Onların 33 nəfəri Vətən müharibəsinin iştirakçıları, 5-i isə şəhid ailələrinin üzvləri olub.

Nazir Vilayət Eyvazov daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə polis adını və şərəfini daim uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini artırmalarını, öz üzərilərində səylə çalışmalarını və vətəndaş məmnunluğunun təmininə layiqli töhfələrini vermələrini tövsiyə edib.

# Şərəfli missiya

**Martın 10-da Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) yaradılmasının 102-ci ili tamam olur. 1920-ci ildə cəmiyyətin yaradılması, ilk növbədə Azərbaycan Xalq Cümhuriyyətinin bəşəri dəyərə verdiyi böyük önəmin təcəssümü idi. Cümhuriyyətin qurucularından olan Fətəli Xan Xoyskinin və görkəmli hərbi xadim, general Əliağa Şıxlinskinin təşəbbüsü ilə təsis edilən cəmiyyət ilk gündən bəşəri və humanizm ideyalarını rəhbər tutmuş, dövlətin sosial qayğılarının bir hissəsini öz üzərinə götürərək humanitar problemlərin həllində fəal iştirak etmişdir. Prezident İlham Əliyevin 7 aprel 2008-ci il tarixli sərəncamı ilə cəmiyyətin yarandığı gün - martın 10-u Azərbaycan Respublikasında Qızıl Aypara Günü kimi qeyd olunur.**

1920-ci ilin aprelində Azərbaycanın sovet imperiyasına daxil edilməsindən sonra AzQAC-ın da fəaliyyəti məhdudlaşdırılıb. 1922-ci ilədək Azərbaycanda formal olaraq Rusiya Qızıl Xaç Cəmiyyətinin nümayəndəliyi fəaliyyət göstərib. 1922-ci ilin oktyabr ayında Azərbaycan Xalq Komissarları Şurasının qərarı ilə yenidən AzQAC yaradılıb. Cəmiyyət 1991-ci ilədək Ümumittifaq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Birliyinin üzvü kimi humanitar fəaliyyətini davam etdirmişdir. AzQAC sovet hakimiyyəti illərində də bir sıra uğurlar qazanmışdı. Belə ki, cəmiyyət vaxtilə geniş yayılmış vərəm, vəba, difteriya və digər yoluxucu xəstəliklərin qarşısının alınmasında nəzərəçarpan rol oynamışdır. O cümlədən AzQAC-ın şəfqət bacılarının II Dünya müharibəsi illərində yaralı əsgərlərimizə göstərdikləri fədakar və qayğıkeş xidmət ordunun döyüş qabiliyyətinin yüksəlməsinə və faşizm üzərində qələbənin əldə olunmasına mühüm töhfə vermişdir. Təsadüfi deyil ki, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının ən yüksək mükafatı - "Florens Nayntingel" medalı ilə təltif olunanlar sırasında AzQAC-ın üzvü olan şəfqət bacıları da var.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən bir neçə gün sonra AzQAC da müstəqil fəaliyyət göstərəcəyini elan edib. Yenidən təşkilatlanan cəmiyyət ilk gündən etibarən Azərbaycanın qarşılaşdığı ciddi problemlərin həlli istiqamətində fəal iş aparıb. Dövlət müstəqilliyimizin ilk illərində ölkədə mövcud olan çətinliklər, xüsusilə Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış problemlərin aradan qaldırılmasında əsas rol oynayan qeyri-hökumət təşkilatlarından biri AzQAC idi.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycana rəhbərliyə başlamasından sonra respublikamızda baş verən dəyişikliklər, vətəndaş cəmiyyətinin inkişafı AzQAC-ın fəaliyyətinin yeni mərhələyə yüksəlməsinə səbəb olmuşdur. Müstəqilliyimizin ilk illərində AzQAC öz missiyasını davam etdirsə də, cəmiyyətin heç bir hüquqi bazasının olmaması, beynəlxalq aləmdə tanınmaması, bütövlükdə ölkədəki gərgin vəziyyət onun inkişafı üçün böyük problemlər yaradırdı. Hətta bəziləri cəmiyyəti nüfuzdan salmağa çalışırdılar. Yalnız Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bütün bunlar başa çatdı. Ulu Öndərin təşəbbüsü hələ 1994-cü ildə AzQAC milli qurum kimi dövlət tərəfindən tanındı. Sonrakı dövrlərdə də Ulu Öndər AzQAC-ın Azərbaycan cəmiyyətinin ayrılmaz tərkib hissəsinə çevrilməsi, onun fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi üçün diqqət və qayğısını əsirgəməyib. Heydər Əliyevin 12 mart 2003-cü il tarixində AzQAC-ın XX Qurultayına təbrik məktubu Ulu Öndərin cəmiyyətimizin fəaliyyətinə verdiyi əvəzsiz qiymətdir. Təbrikdə deyilir: "Qızıl Aypara Cəmiyyəti bu gün öz qüvvələrini səfərbər edərək, müstəqil Azərbaycan Respublikası qarşısında duran vəzifələrin yerinə yetirilməsində yaxından iştirak edir. Ermənistanın respublikamıza qarşı yeritdiyi işğalçılıq siyasəti nəticəsində öz doğma yurdlarından didərgin düşmüş bir milyondan artıq qaçqın və məcburi köçkünlərin sosial-məişət problemlərinin həllində, əsir və girovların azad edilməsi və reabilitasiyasında Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti təqdirəlayiqdir".

Azərbaycanı böyük inkişaf yoluna çıxaran Prezident İlham Əliyev də AzQAC-ın fəaliyyətinə yüksək diqqət və qayğı ilə yanaşır. Məhz cənab İlham Əliyevin qayğısı sayəsində AzQAC regionda ən yaxşı təchiz olunmuş cəmiyyətlərdən birinə çevrilib. Xatırladım ki, İlham Əliyevin prezident kimi fəaliyyətə başladığı ilk aylarda verdiyi qərarlardan biri "Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında" 31 yanvar 2004-cü il tarixli sərəncam olmuşdur.

2007-ci ildə "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Qanunun qəbulu da Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü nəticəsində mümkün olmuşdur. Bütün bunlar, o cümlədən cəmiyyətimizin yaranmasının yubileylərində AzQAC üzvlərinin "Tərəqqi" medalı ilə təltif olunması fəaliyyətimizə verilən ali dəyərdir. 2013-cü ilin mart ayında Prezident İlham Əliyevin AzQAC-ın XXIV Baş Məclisinə göndərdiyi məktubda cəmiyyətimizlə bağlı söylədiyi fikirlər əməyimizə verilən qiymətin göstəricisidir. "Respublikamızın müasir ictimai və sosial həyatında Qızıl Aypara Cəmiyyəti özünəməxsus yer tutur, humanizm və könüllülük prinsiplərinə əsaslanaraq qayğıya ehtiyac duyan insanlara lazımi yardım göstərir", - deyə Prezident İlham Əliyev təbrikində bildirib.

Respublikamızda hər zaman xeyirxahlıq və mərhəmət kimi nəcib keyfiyyətlərə əsaslanan fəaliyyətə böyük önəm verilib. Bu sahədə Heydər Əliyev Fondunun gördüyü işlər bütün dünya üçün böyük nümunələrdir. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə fondun həyata keçirdiyi layihə və proqramlar, əsasən, əhalinin aztəminatlı və qayğıya ehtiyacı olan təbəqəsinə yönəlib. Bütün bunlar AzQAC-ın da fəaliyyətinə işıq salır. Hazırda AzQAC 300 minədək üzvü, 20 minədək könüllüsü olan təşkilatdır. Cəmiyyətimizin 83 rayon bölməsi və 7 regional mərkəzi uğurla fəaliyyət göstərir. Beynəlxalq hərəkatı respublikamızda təmsil edən cəmiyyətin fəaliyyəti əhalinin aztəminatlı təbəqəsinə, münaqişə, təbii və texnogen fəlakətlər zamanı zərərçəkmişlərə təmənnasız ilkin tibbi-sosial, humanitar yardım və digər zəruri xidmətlərin göstərilməsindən ibarətdir. Bu mənada cəmiyyətin fəaliyyəti çoxsahəlidir.

Cəmiyyətimizdə xeyriyyəçilik institutunun inkişafı, humanizm dəyərlərinin geniş şəkildə bərqərar olması, dövlət qayğısı və Prezident İlham Əliyevin diqqəti AzQAC-ın öz missiyasını daha inamla həyata keçirməsinə stimul verib. Bu diqqət və qayğı həm də bizim üçün böyük məsuliyyət deməkdir. AzQAC bundan sonra da öz missiyasını uğurla və layiqincə həyata keçirərək dövlətimizə və xalqımıza layiqincə xidmət göstərəcək, cəmiyyətimizdə humanizm dəyərlərinin daha da inkişafına böyük töhfələr verəcək.

***Novruzəli ASLANOV,***
***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti,***
***Milli Məclisin deputatı***

# Azərbaycan dövləti vətəndaşına sahib çıxır

## İlham Əliyevin yürütdüyü siyasətin mərkəzində vətəndaşlarımızın rifahı ilə yanaşı təhlükəsizliyi də dayanır

*Əvvəli 1-ci səh.*

Eyni zamanda iki dövlətin xalqları arasında sıx dostluq münasibətləri mövcuddur. Bu səbəbdəndir ki, hazırda Ukrayna xaricdə yaşayan azərbaycanlıların olduqca mütəşəkkil şəkildə təşkilatlandıqları dövlətlərdən biridir. Bu ölkədə güclü Azərbaycan diasporu fəaliyyət göstərir. Bundan başqa, minlərlə azərbaycanlı Ukraynanın müxtəlif ali məktəblərində təhsil alır. Xeyli sayda Azərbaycan vətəndaşı Kiyevdə, Xarkovda, Odessada, Lvovda və digər iri şəhərlərdə biznes fəaliyyəti ilə məşğuldur. Ukraynanın sanatoriya və kurortlarında hər il on minlərlə azərbaycanlı istirahət edir. Elə bu səbəblərdən də hazırda Ukrayna vətəndaşları olan soydaşlarımızla yanaşı, Azərbaycan vətəndaşlarının da bu ölkədə olması təbiidir.

Ukraynada hərbi əməliyyatların ilk günlərindən Azərbaycanın həm bu ölkədəki, həm də Moldova, Polşa və Rumıniyadakı səfirliklərinin əməkdaşları soydaşlarımızın təxliyəsi üçün səfərbər olunublar. Bolqarıstan da Azərbaycan vətəndaşlarının Ukrayna ərazisini tərk etməsini nəzərə alaraq, soydaşlarımızın bu ölkə ərazisindən keçmələri üçün müvəqqəti olaraq viza tələbini ləğv edib. Vətəndaşlarımız Rumıniya vasitəsilə Bolqarıstana, oradan isə Türkiyə ərazisinə keçməklə Azərbaycana qayıda bilərlər. Bu ölkələrdə vətəndaşlarımızın tranzit keçidi üçün viza tələbi müvəqqəti olaraq aradan qaldırılıb. Onlara yalnız səyahət sənədi təqdim edilir. COVID-19 pasportu və PCR testinin neqativ nəticəsi mütləq şəkildə tələb olunmur.

### Təxliyə davam edir

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin məlumatına əsasən, martın 8-dək respublikamıza 4375 nəfər təxliyə edilib. Onların arasında çarter reysləri ilə təxliyə edilənlər 2298 nəfər, quru yolu ilə isə 2077 nəfər təşkil edib. Vətəndaşlarımızın təxliyəsi üçün Azərbaycan hökuməti tərəfindən əksəriyyəti Rumıniyanın Yassi şəhərin-




dən olmaqla, Rumıniya və Polşa ərazisindən indiyədək 12 çarter reysi təşkil olunub. Bu reyslər zamanı, əsasən, qadınlar, uşaqlar, yaşlılar, xəstələr və digər həssas qrupa daxil olan vətəndaşlarımızın təxliyəsinə üstünlük verilib.

Hazırda Ukraynadakı vəziyyətlə əlaqədar, bu ölkədəki Azərbaycan vətəndaşlarının qonşu ölkələrin ərazisindən keçməklə Azərbaycana təxliyəsi davam etdirilir.

Xatırladaq ki, Azərbaycan dövləti bundan əvvəl, 2020-ci ildə koronavirus infeksiyasının yayıldığı zaman xarici ölkələrdə olan vətəndaşlarımızın təxliyəsini həyata keçirmişdi. Həmin vaxt təyyarə reyslərinin ləğv olunması səbəbindən xeyli sayda vətəndaşımız xarici ölkələrdə qalmışdı. Prezident İlham Əliyevin göstərişləri əsasında dövlət qurumları həmin vətəndaşların qısa müddətdə öz evlərinə qayıtmalarını təmin etdi. O dövrdə respublikamızda dərhal qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlərin görülməsi sayəsində koronavirusun ciddi fəsadlar verməsinin qarşısı alındı. İctimaiyyət ilk gündən Prezident İlham Əliyevin problemlə mübarizədə qətiyyətini, atdığı addımlarla insanların yanında olduğunu gördü.

Azərbaycan dövləti eyni reaksiyanı bu günlərdə soydaşlarımızın Ukraynadan təxliyəsi zamanı da nümayiş etdirdi. Bir neçə gün ərzində minlərlə soydaşımızın doğma vətənə qayıdışının təmin olunması göstərir ki, dövlətimiz heç vaxt öz vətəndaşını darda qoymur. Hətta onların bir qisminin sənədləri qaydasında olmasa belə, problemləri dərhal və çevik şəkildə aradan qaldırılır.

Beləliklə, Ukraynadan həyata keçirilən təxliyənin fonunda ictimaiyyət bir daha gördü ki, dövlətimiz istənilən zaman, bütün gözlənilməz, ekstremal və çətin situasiyalarda vətəndaşının yanındadır. Ukraynadakı hərbi əməliyyatlarla əlaqədar çətinliyə düşmüş və hətta stres keçirmiş vətəndaşlarımız üçün bundan böyük dəstək ola bilməzdi. Bütün bunlar bir daha təsdiq etdi ki, Prezident İlham Əliyevin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşının rifahı ilə yanaşı, onun təhlükəsizliyi də dayanır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan nefti bahalaşmaqda davam edir

## *Ölkəyə daxil olan əlavə dividendlər valyuta ehtiyatlarının artmasını şərtləndirəcək*

**Rusiya-Ukrayna müharibəsi dünya neft bazarına da öz təsirlərini göstərməkdə davam edir. Müharibə fonunda dünya neft bazarında xam neftin qiyməti getdikcə yüksəlir.**




Ekspertlər dünya neft bazarındakı qiymətlərin qalxmasını birbaşa müharibə ilə əlaqələndirirlər. Qeyd olunur ki, neftin qiyməti müharibədən asılı olaraq dəyişə bilər. Müharibə davam edəcəyi halda neftin qiymətinin daha da artacağı proqnozlaşdırılır. Dünya neft bazarında "Azeri Light" (CIF) markalı neftin martın 9-da bir barelə olan qiyməti 135,99 dollar təşkil edib.

### Neftin qiymətinin qalxmasının əsas səbəbi

Dövlət Neft Fondundan qəzetimizə verilən məlumata əsasən, dünya bazarında xam neftin qiymətinin artması, ilk növbədə neft ixracatçısı olan Azərbaycanın büdcə daxilolmalarının, xüsusilə də Dövlət Neft Fondunun mənfəət neftinin və qazın satışı ilə bağlı gəlirlərinin artmasına şərait yaradır. Bununla yanaşı nəzərə alınmalıdır ki, hazırda neftin qiymətinin yüksək səviyyəsinin formalaşmasında əsas aparıcı qüvvə iqtisadi aktivliyin təbii artan trendi deyil, daha çox yaşanan geosiyasi böhran fonunda dünya maliyyə bazarlarında, o cümlədən enerji daşıyıcılar bazarında müşahidə olunan qısamüddətli yüksək qiymət dəyişkənliyidir:

"Dövlət Neft Fondu müxtəlif valyutalarda ifadə olunan fərqli investisiya aktivlərindən ibarət valyuta vəsaitlərini idarə edən qlobal investordur. Həm məlum hadisələr fonunda dünya iqtisadiyyatında müşahidə olunan inflyasiya təzyiqləri, həm mərkəzi bankların faiz dərəcəsi siyasəti üzrə gözlənilən trendlər, həm də maliyyə bazarlarında izlənilən ciddi qısamüddətli qiymət dəyişkənliyi fondun fəaliyyəti üçün müəyyən təsirlər formalaşdırmaqdadır", - deyə məlumatda qeyd edilir.

### Dövlət Neft Fondunun büdcəsinə əlavə vəsait daxil olacaq

Dövlət Neft Fondunun 2022-ci il büdcəsində mənfəət neftinin və qazın satışı maddəsi üzrə ümumilikdə 5 046,5 milyon ABŞ dolları məbləğində (xam neftin 50 ABŞ dolları qiyməti ilə) vəsaitin daxil olması nəzərdə tutulub. Xam neftin qiymətində hər 10 ABŞ dolları artım fondun büdcəsinə təqribən əlavə 1,4 milyard ABŞ dollarına qədər vəsaitin daxil olmasına şərait yaradır. Neftin qiymətində müşahidə edilən artım ənənəvi iqtisadi amillərin təsirindən daha çox hazırda dünyada baş verən siyasi qeyri-müəyyənlik səbəbindən baş verdiyindən, gələcək dövrlərdə də enerji daşıyıcıların qiymətlərində izləniləcək trendlər əsasən bu proseslərin necə cərəyan etməsindən asılı olacaq.

Milli Məclisin İqtisadi, siyasət və sosial məsələlər komitəsinin deputatı Vahid Əhmədov qəzetimizə açıqlamasında bildirib ki, Rusiya-Ukrayna müharibəsi dövründə neftin qiymətinin artması davam edəcək: "Artıq ABŞ və Böyük Britaniya neft və qazın idxalı ilə bağlı müəyyən qərarlar qəbul edib. ABŞ-ın neft idxalının təxminən 8 faizini, Böyük Britaniyanın neft idxalının isə 7 faizə yaxınını Rusiya nefti təşkil edir. Qiymət artımı hərraclarda neftin kifayət qədər az olması ilə əlaqədardır. Neftin qiymətinin qalxması Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir, çünki buna görə dövlət büdcəsinə əlavə vəsait daxil olur. Əlavə gəlirlər də lazım olan yerlərdə, xüsusilə Qarabağın bərpasında istifadə ediləcək. Düşünürəm ki, neftin qiyməti bu trendlə getsə, yaxın vaxtlarda 150 ABŞ dollarına çatacaq. Bu proses davamlıdır. Müharibənin uzun müddət davam edəcəyinə inanmıram. Hesab edirəm ki, martın sonuna yaxın Rusiya-Ukrayna arasında müəyyən sənəd imzalanacaq. Bununla belə sanksiyaların nə vaxt aradan götürüləcəyi sual altındadır".

Vahid Əhmədov qeyd edir ki, neftin qiymətinin artması Azərbaycan iqtisadiyyatına müsbət təsirini göstərəcək. Hazırda Avropa dövlətləri ilə Azərbaycan arasında müəyyən danışıqlar gedir. Azərbaycanın neft və qazının Avropa ölkələrinə ixracı ilə bağlı müraciətlər var. Neftin qiymətinin aşağı enməsi müharibənin sona çatması ilə deyil, sanksiyaların aradan qaldırılması ilə bağlıdır. Deputat sanksiyaların qısa müddətdə aradan qaldırılacağına inanmır.

Deputat deyir ki, Azərbaycanın valyuta ehtiyatları baxımından problemi yoxdur. Ölkənin kifayət qədər valyuta ehtiyatı var. Neftin qiymətinin qalxması fonunda dövlət büdcəsinin gəlirləri artdığına görə mayın sonunda Milli Məclisdə dövlət büdcəsinə yenidən baxıla bilər.

### Neft gəlirləri digər sahələrin də inkişafına təsir göstərir

İqtisadçı ekspert Eldəniz Əmirov qəzetimizə açıqlamasında bildirdi ki, Azərbaycan iqtisadiyyatının lokomativi neftdir, buna görə neftin qiymətinin qalxmasının iqtisadiyyata olan əhəmiyyətini daha aydın şəkildə anlamaq olar. Onun sözlərinə görə, qeyri-neft sektorunun stimullaşdırılması, inkişaf etdirilməsi, sahibkarlığın formalaşdırılması insan kapitalına vəsaitlərin yönəldilməsi və digər bu kimi fəaliyyətlərdə neft gəlirlərinin xüsusi çəkisi var: "Buna görə ölkə iqtisadiyyatının inkişafının daha da sürətlənməsi üçün neftdən gələn gəlirlər böyük əhəmiyyətə malikdir. Dövlət büdcəsinin formalaşmasında neft qiymətlərinin üç istiqamətli təsiri var. Bunlardan biri birbaşa Dövlət Neft Fondunda toplanan gəlirlərdir. Dövlət büdcəsinin gəlirlərinin formalaşması üçün vergi, gömrük rüsumları və digər daxilolmalardan əlavə olaraq, Dövlət Neft Fondundan transferlər həyata keçirilir".

Ekspertin fikrincə, 2022-ci ci ilin dövlət büdcəsinin gəlir hissəsində Dövlət Neft Fondundan 12,7 milyard manatlıq transfer nəzərdə tutulub. Bu transferin problemsiz həyata keçirilməsi üçün neft gəlirlərinin yuxarı həddə formalaşması müstəsna əhəmiyyətə malikdir. Dövlət büdcəsinin formalaşmasının ikinci istiqaməti vergi və digər yığımlar hesabına olur. Bu zaman neft, qaz fəaliyyəti ilə məşğul olan dövlət, qeyri-dövlət, xarici və müxtəlif təsərrüfat subyektlərindən daxilolmalar olur. Neft qiymətləri nə qədər yüksək olarsa, bu şirkətlərin, təsərrüfat subyektlərinin gəlirləri də yüksək olur və bu halda daha çox vergi ödənilir. Bunun nəticəsində dövlət büdcəsinə daha çox gəlir daxil olur. Dövlət büdcəsinin formalaşmasının üçüncü istiqaməti isə digər sahələrdən də vergi və rüsumların daxil olmasıdır.

Ekspert qeyd edir ki, neft gəlirləri digər sahələrin də inkişafına təsir göstərir. Bir sözlə, neftdən gələn gəlirlər ölkə iqtisadiyyatına paylanır. İqtisadiyyata pul şaxələndiyi zaman iqtisadi aktivlik artır. İqtisad aktivliyin artmasından isə əlavə gəlirlər əldə olunur.

### Neftin qiyməti 200 dollara qədər qalxa bilər

Eldəniz Əmirov deyir ki, Rusiyaya qarşı sanksiyaların neftin qiymətinin qalxmasında böyük rolu var. Eyni zamanda Rusiya-Ukrayna müharibəsinin təsiri də sanksiyalardan az deyil: "Münaqişəyə görə Rusiyaya sanksiyalar tətbiq olunub, həmçinin müharibə səbəbindən neftin qiymətinə psixoloji təzyiq yaranıb. Təsəvvür edin ki, dünyada neft idxal edən ölkələr, şirkətlər - bu fəaliyyətlə məşğul olan bütün subyektlər bu münaqişənin nə ilə nəticələnəcəyini hələ dəqiq bilmirlər".

Ekspert hesab edir ki, problemlər yarandığı zaman neft qiymətləri fantastik həddə qalxa bilər. Neftin qiymətinin yüksək həddə qədər qalxa biləcəyini düşünərək şirkətlər hazırda istehsala yönəltməyəcəyi nefti belə alıb öz anbarlarına tədarük edirlər ki, gələcəkdə bir problem yaranarsa, neft ehtiyatları olsun. Bu davranış isə neftin qiymətini ciddi şəkildə artırır. Bu proses birbaşa müharibənin hansı vaxtadək davamından asılıdır. Neftin 200 dollara qədər qalxma ehtimalı da var.

Ekspert deyir ki, Azərbaycanın valyuta ehtiyatları 53 milyard dollardan artıqdır. Bu məbləğin də təxminən 45 milyard dolları Dövlət Neft Fondunun ehtiyatındadır. Dövlət büdcəsində bir barel neftin qiymətinin 50 dollar götürüldüyünü nəzərə alsaq, hazırda neftin qiyməti mövcud qiymətindən 150 faizdən daha yüksəkdir. Bu isə ölkə iqtisadiyyatı üçün 2 dəfədən artıq müsbət effekt verir. Rusiyaya qarşı sanksiyaların davam edəcəyi təqdirdə həm neftin qiyməti, həm də Azərbaycana daxil olan valyuta artacaq. Eləcə də Azərbaycan neftinə tələbat artmış olacaq. Bu, ölkəyə, təkcə, valyuta daxil olması deyil, eyni zamanda ölkənin Avropa və dünyada imicinin artması ilə nəticələnəcək, çünki bir bölgənin enerji təhlükəsizliyində rol oynayan ölkənin həmin bölgə üzrə imici təbii olaraq atmış olur.

### Rusiyaya qarşı qadağaların artması…

ABŞ Prezidenti Cozef Bayden Rusiyadan neft və qaz idxalına qadağa qoyulduğunu açıqlayıb. Böyük Britaniya da 2022-ci ilin sonuna kimi Rusiyanın neft və neft məhsullarının idxalını dayandıracağını bildirib. Avropa İttifaqı isə Rusiyadan neft idxalını məhdudlaşdıracaqlarını bəyan edib.

Bəzi ekspertlər Rusiyaya qarşı sanksiyaların müvafiq ölkələrin iqtisadiyyatı üçün ciddi problemlərə gətirib çıxaracağını vurğulayırlar.

Rusiya isə sanksiyalar davam edəcəyi halda Qərb ölkələri üçün neftin qiymətinin 300 dolları keçəcəyini və Rusiya-Almaniya qaz kəmərinin bağlanması ilə üzləşəcəklərini qeyd edib. Rusiyanın Baş naziri Aleksandr Novak bildirib ki, Rusiya neftindən imtina qlobal bazar üçün fəlakətli nəticələrə gətirib çıxaracaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Hazırda Gürcüstanda "SOCAR" brendli 108 yanacaqdoldurma məntəqəsi fəaliyyət göstərir

SOCAR Gürcüstanın ən böyük investorlarından biri olmaqla yanaşı, eyni zamanda uzun illər boyu ən çox vergi ödəyicisidir.

Şirkətin həyata keçirdiyi layihələr iki qonşu dövlət arasında əlaqələrin möhkəmlənməsinə xidmət edir. SOCAR-ın ölkə xaricində ilk yanacaqdoldurma məntəqəsi Gürcüstanda açılıb. Hazırda Gürcüstanda "SOCAR" brendi altında işləyən yanacaqdoldurma məntəqələri şəbəkəsi genişlənməkdədir.

Şirkətdən AZƏRTAC-a bildirilib ki, hazırda bu ölkədə "SOCAR" brendli 108 yanacaqdoldurma məntəqəsi fəaliyyət göstərir. Bunlardan 78-i benzin, 24-ü kompleks, 6-sı CNG satışını həyata keçirir.

# Son iki ayda DSMF tərəfindən əhaliyə müavinətlər üzrə 132 milyon, təqaüdlər üzrə 89 milyon manat ödənilib

**2022-ci ilin yanvar və fevral aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu (DSMF) tərəfindən 772 min şəxsə sosial müavinət və təqaüd ödənilib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, onlardan 407 min nəfəri sosial müavinətlə, 365 min nəfəri Prezidentin aylıq təqaüdü ilə təmin olunub.

Müavinət ödənişləri üçün ötən ilin müvafiq dövrünə nisbətən 34 faiz çox olmaqla 132 milyon manat, təqaüd ödənişləri üçün 25 faiz çox olmaqla 89 milyon manat sərf edilib.

Son üç ildə müavinət və təqaüdlərin də elektron təyinatı sistemləri işə salınıb. 2022-ci ilin 2 ayında 86 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada aparılıb.

# REGİONLAR



## Ağdam şəhərində 960 şagirdlik məktəb binası tikilir



İşğaldan azad edilmiş Ağdam şəhərində 1 nömrəli məktəb üçün 960 şagird yerlik binanın tikintisi sürətlə davam etdirilir.

Tikintidə sahə rəisi Samir Pirmətov AZƏRTAC-a bildirib ki, məktəbin inşasına ötən ilin dekabrında başlanılıb. İki hektar ərazidə inşa edilən üçmərtəbəli məktəb binası üç blokdan ibarət olacaq. Məktəb binasında 40 sinif otağı, laboratoriya və fənn kabinələri, akt və idman zalları, kitabxana, yeməkxana, muzey, xidməti otaqlar yaradılacaq. Bina istilik, elektrik, havalandırma və müşahidə sistemləri ilə təmin ediləcək. Məktəbin həyətində futbol və basketbol meydançaları, nasosxana, qazanxana, transformator binası, içməli və yanğın su hovuzları, çirkab su anbarı inşa ediləcək.

İşlər yüksək keyfiyyətlə, tikinti normalarına uyğun şəkildə aparılır. Hazırda binanın zirzəmi hissəsində dəmir-konstruksiya, qəlib işləri görülür. Binanın tikintisinin bu ilin sonunda yekunlaşdırılması nəzərdə tutulur.

Ağdam rayonundan olan Xəqani Qurbanov işğaldan azad edilmiş ərazilərin bərpasında iştirak etdiyi üçün qürur duyduğunu deyib: "Mən çox sevinirəm ki, torpaqlarımız işğaldan azad edilib. Aparılan tikinti işlərində mən də iştirak edirəm. Ağdamın tikintisində mənim də əməyim var. Bunun üçün qürurluyam".

## Balakəndə 630 hektar sahədə yazlıq bitkilər əkilib

Balakən rayonunun təsərrüfatlarında yazlıq bitkilərin əkininə başlanılıb. Qısa müddətdə 630 hektar sahədə yazlıq əkin aparılıb. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 19 hektar çoxdur.



Bu barədə AZƏRTAC-a Balakən rayon Statistika İdarəsindən məlumat verilib.

Bildirilib ki, məhsul istehsalçıları indiyədək 252 hektar sahədə kartof və 222 hektarda tərəvəz bitkiləri əkib, 156 hektar sahəyə çoxillik yonca səpiblər.

Təsərrüfatlarda, eyni zamanda tütün əkini üçün şitillərin yetişdirilməsi və taxıl əkinlərinə aqrotexniki xidmət işləri də davam etdirilir.

Xatırladaq ki, ötən il balakənli torpaq mülkiyyətçiləri 11 min 947 hektar sahədə yazlıq bitkilər əkiblər. Yazlıq əkinlərin 7 min 577 hektarını dən üçün qarğıdalı sahələri təşkil edib.

## Soyuducu anbarlar fermerlərin əlindən tutur

**İqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edən Tovuz rayonunda aqrar sahə sürətlə inkişaf edir. Dövlətin təsərrüfat sahiblərinə verdiyi dəstəkdən yararlanan tovuzlular hər ili uğurla yola salır, bol kənd təsərrüfatı məhsulları istehsal etməklə ölkəmizdə ərzaq təhlükəsizliyinin qorunmasında əllərindən gələni əsirgəmirlər.**



Əvvəlki illərdə olduğu kimi, keçən il də bütün sahələr üzrə yüksək göstəricilər qazanan fermerlər 139,1 hektar bağdan 21 min ton meyvə, 49,5 hektar sahədən 1000 tonadək giləmeyvə toplamışlar ki, bu da əvvəlki ildəkindən xeyli çoxdur. Digər sahələrdə də yüksək göstəricilər qazanılmışdır. 1087,3 hektar tərəvəz sahəsinin hər hektarından 208 sentner olmaqla 22620,7, 23 hektar bostan sahəsinin hər hektarından 191,3 sentner olmaqla 440 ton məhsul toplanmışdır.

Rayonda üzümçülük də sürətlə inkişaf edir. Bunun üçün rayonlaşdırılmış üzüm sortlarından ibarət yeni plantasiyalar salınır. Həyata keçirilən tədbirlər nəticəsində üzüm bağlarının sahəsi 808 hektara çatdırılmışdır ki, onun da 14,5 hektarı bu il salınan bağlardır. Plantasiyaların 668 hektarı süfrə üzümüdür.

Respublikamızda ikinci ən böyük kartof istehsalçısı olan Tovuz rayonunda keçən il 6 min 748,7 hektardan 174 min 453,5 ton məhsul yığılmışdır. Orta hesabla hər hektardan 258,5 sentner məhsul götürülmüşdür. Hazırda rayonda kartofçuluqla məşğul olan çoxlu sayda fermer təsərrüfatı var. Onların təsərrüfatlarında min tonlarla məhsul istehsal olunur.

Rayonda istehsal olunan kənd təsərrüfatı məhsullarının uzun müddət saxlanılması da mümkündür. Bu məqsədlə rayonda 22 min 500 ton tutumu olan soyuducu anbar kompleksi inşa edilmişdir. Loqistik mərkəz kimi fəaliyyət göstərən bu obyekt regionda kartofçuluğun inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Hazırda Tovuz rayonunda 40-a yaxın soyuducu anbar fəaliyyət göstərir. Təsərrüfat sahibləri bu anbarların gücündən maksimum istifadə etməyə çalışırlar. Onlar hər il yetişdirdikləri məhsulu anbarlara yığmaqla qış mövsümündə satışını həyata keçirir və nəticədə daha çox qazanc əldə edirlər.

Rayonda ən çox kartof istehsalı ilə məşğul olan fermer Sakit Yəhyayev deyir ki, böyük təsərrüfatı var. Hər il bu təsərrüfatda tonlarla kartof və müxtəlif bostan bitkiləri istehsal edilir. İstehsal olunmuş məhsulların soyuducu anbarlarda saxlanması ona xeyli xeyir gətirir.

Aşağı Quşçu kənd sakini Sabit Cəfərov deyir ki, soyuducu anbarların xidmətindən istifadə etmək onlar üçün sərfəlidir. Məsələn, yığım vaxtı üzümün qiyməti 50-60 qəpik olursa, sonrakı aylarda bu qiymət ikiqat artır. Bu səbəbdən onlar yığım vaxtı məhsulun bir hissəsini soyuducu anbarlarda saxlayırlar ki, qış aylarında sərfəli qiymətə satsınlar.

Bəzi fermerlər isə soyuducu anbarlardan istifadə etmirlər. Bunlar kiçik təsərrüfatı olanlardır. Bağ kiçik olduğundan məhsul da az olur. Ona görə də sahədə satış mövsüm vaxtı həyata keçirilir. Fermer Vüqar Nəsirov: "Bizim üzüm bağımız var. Sahəm az olduğuna görə məhsulu yerində satıram. Ona görə də soyuducu anbarlardan indiyədək istifadə etməmişəm. Gələcəkdə bağın sahəsini genişləndirsəm, soyuducu anbarların xidmətindən istifadə etməyi planlaşdırıram".

Fermer Kərəm Səfərovun 700 tonluq soyuducu anbarı var. Üç kameradan ibarət anbarda əsasən xurma və kartof saxlanılır. Söhbət zamanı dedi ki, icarəyə də məhsul götürürük: "Öz məhsulumuzu da anbarda müəyyən qədər saxlayırıq. Xurma yeşiklərinin birinin saxlanması xərci iki ay müddətinə 1 manat 20 qəpikdir".

Gənc fermer olmasına baxmayaraq, bu sahədə yetərincə təcrübə qazanmış Şəhadət Mehralıyev isə deyir ki, 400 ton tutumuna malik soyuducu anbarı var. Soyuducunun quraşdırılmasına 50 min manat xərcləyib. Onun da fermer kimi bəzi təklifləri var: "Soyuducu anbarın qurulması üçün nəzərdə tutulan izolyasiya avadanlıqlarının, materialların dövlət tərəfindən güzəştli qiymətlərlə verilməsi yaxşı olardı. Əgər belə olarsa, məhsulu da ucuz qiymətə saxlaya bilərik". Bundan əlavə, soyuducu anbar sahibləri enerji xərclərində bu obyektlərin də kənd təsərrüfatı sahəsi kimi güzəştlərə cəlb edilməsinin vacibliyini bildirirlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Ağcabədidə şəhid anaları və xanımları ilə görüş keçirilib

8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Gənclər Mərkəzində keçirilən görüşdə çıxış edənlər bayram münasibətilə xanımları təbrik ediblər. Qeyd ediblər ki, şəhidlərimiz kimi, onların valideynləri, xanımları, övladları da dəyərlidir, əzizdir.



Hər bir qəhrəman əsgərimizin arxasında mərd, şücaətli, mübariz Azərbaycan qadınının dayandığını vurğulayan natiqlər istər Birinci Qarabağ müharibəsində, istərsə də Vətən savaşı zamanı bunun bir daha şahidi olduğumuzu bildiriblər. Sonra şəhid analarına və xanımlarına üzərində xarıbülbül təsviri və şəhidlərin adı həkk olunan kəlağayılar hədiyyə edilib. "N" saylı hərbi hissə komandirinin ideoloji işlər üzrə müavini, polkovnik-leytenant Ramazan Orucov müdafiə nazirinin əmri ilə Vətən müharibəsində itkin düşmüş əsgər Mehdiyev Asim Yaqub oğluna verilən Azərbaycan Respublikasının "Şücaətə görə" medalını onun anası Gültəkin Mehdiyevaya təqdim edib.

Tədbirdə həmçinin şəhid atası Rəşad Rəhimli, şəhid anası Zülfiyyə Quliyeva, şəhid xanımı Samirə Xudiyeva çıxış edərək göstərilən diqqətə görə öz minnətdarlıqlarını bildiriblər.

Sonda Mirzə Fətəli Axundov adına şəhər 3 saylı məktəb - liseyin şagirdləri qadınlara həsr olunmuş şeir kompozisiyası ilə çıxış ediblər.

## Tərtər şəhərinin küçələri əsaslı təmir olunur

2022-ci ilin ilk ayından başlayaraq Tərtər şəhərində tikinti, abadlıq-quruculuq işləri geniş vüsət alıb. Küçələr memarlıq tələblərinə uyğun olaraq yenidən qurulur.

Şəhərin bir neçə küçəsində əsaslı təmir və asfaltlanma işləri başa çatıb. Bəzi küçələrdə isə səkinin kənarlarında yeni yaşıllıq zolaqları salınıb, müxtəlif dekorativ gül kolları və ağaclar əkilib.

Hazırda küçələrin əsaslı təmiri davam edir. İstinad divarları hörülür, hündürləşdirilir, qəzalı vəziyyətdə olan divarlar sökülüb yenisi ilə əvəz olunur, divarlar aqlay və bəzək daşları ilə üzlənir. Kommunikasiya, işıq, telefon xətləri də səliqəyə salınır, ağaclar budanır, təmizlik işləri aparılır.

Şəhər sakinləri görülən işlərdən razılıq edirlər. Rəşad Kərimov, Xosrov Həşimov, İlyas Baxışov və başqaları rayon mərkəzinə göstərilən diqqət və qayğıkeşliyə görə bu işdə əməyi olan hər kəsə minnətdarlıqlarını bildirirlər.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Qobustan Heyvandarlıq Nümayiş Kompleksində xarici cins «Simmental» inəklərinin satışına başlanılıb

"Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin tabeliyində olan Qobustan Heyvandarlıq Nümayiş Kompleksinə Avropa mənşəli yeni cins damazlıq heyvanlar - "Simmental" inəkləri gətirilib.




İnəklər kompleksin qaramalın saxlama fermasında standartlara uyğun şəraitdə bəslənilir. Karantin müddəti bitdiyinə görə artıq inəklərin satışına başlanılıb.

Avstriya mənşəli "Simmental" cinsi Avropada geniş yayılıb, südlük-ətlik və ətlik-südlük istiqamətli cinsdir. "Simmental" adaptasiya baxımından quru-rütubətli, isti-soyuq iqlimlərə tez uyğunlaşan cins damazlıq heyvandır. Bu malın məhsuldarlıq və damazlıq keyfiyyəti olduqca yüksəkdir, yerli cinslərin təkmilləşdirilməsində istifadə edilir. Bu cinsin əsas xüsusiyyətləri: yediyi yemin müqabilində çoxlu məhsul hasil etmək, tezyetişkənlik, kökəlmə qabiliyyəti, ətin yüksəkkeyfiyyətli olması və sairdir. Ətlik-südlük istiqamətli "Simmental" cinsli heyvanların süd məhsuldarlığı və yağlılığı kifayət qədər yüksəkdir (5500-6500 lt və yağlılığı 3,8-4,1%). "Simmental" cinsli damazlıq heyvanların laktasiya dövrü 305 gündür. Süd məhsuldarlığı 1-ci laktasiya dövründə 5500 lt-dən çox, 2-ci laktasiya dövründə 6500 lt-dən çox, 3-cü laktasiya dövründə 7000 lt-dən çox olur. "Simmental" cinsin ətlik keyfiyyəti yüksək olub, kökəldilmiş cöngələr 18 aylıqda 500 kq, 24 aylıqda 650 kq canlı kütləyə çatırlar. Yaxşı yemləmə və bəsləmə şəraitində 900-1100 qram sutkalıq çəki artımı əldə etmək mümkündür. Təmiz ət çıxarı 50-55 faiz olur.

Bu heyvanların kompleksə gətirilib satılmasında əsas məqsəd fermerlərin cins heyvanlara əlçatanlığına, ölkədə heyvanların cins tərkibinin yaxşılaşdırılmasına nail olmaqdır. Xatırladaq ki, kompleksdə heyvanların 60% dövlət güzəşti ilə satışı təşkil edilir. Burada fermerlər heyvanlara baxış keçirərək, sərgi-satış mərkəzində və auksionda hərraca qoşularaq əldə edə bilərlər. Sərgi salonuna gələn ziyarətçilər ölkədə və Avropada satışda olan heyvanlar haqqında həm video çarx vasitəsilə, həm də satış nümayəndələri vasitəsilə onların məhsuldarlığı, şəcərəsi, cins tərkibi, saxlanılma şəraiti barədə ətraflı məlumat əldə edə bilərlər. Həmçinin kompleksin daxilində heyvan satışını həyata keçirən lizinq şirkətləri, heyvanların sığrotalanması üçün sığorta şirkətləri fəaliyyət göstərir ki, bu da müasir kompleksdə heyvan alqı-satqısı zamanı bütün prosesləri fermerlər üçün daha asan edir. Belə ki, bütün alqı-satqı, sığorta, lizinq, güzəşt tətbiqi prosesləri vahid mərkəzdə həyata keçirilməklə, xidmətlərdə operativlik və şəffaflıq təmin edilir. Yəni heyvan alışı zamanı Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 60% dövlət güzəştinin tətbiqi, lizinq, sığorta və qiymətləndirmə şirkətləri mərkəzin özündə fəaliyyət göstərdiyi üçün artıq bu qurumlara ayrı-ayrılıqda müraciət etməyə ehtiyac qalmır. Fermer seçdiyi, aldığı heyvana görə sənədləşdirmə işlərini bir gün müddətində vahid mərkəzdə həyata keçirmək imkanı əldə edir.

## "Azərişıq" ASC-nin sədri Mingəçevirdə vətəndaşları qəbul edəcək

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov martın 10-u saat 10:00-da qurumun "Mərkəzi Aran" RETSİ-nin Mingəçevir şəhəri Heydər Əliyev prospektində yerləşən inzibati binasında Mingəçevir və Yevlax rayonlarından olan vətəndaşları qəbul edəcək.

Qəbul Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşları qəbulu cədvəlinə əsasən baş tutacaq.

Qəbulda iştirak etmək istəyən şəxslər Yevlax EŞ-yə və Mingəçevir EŞ-yə, həmçinin "Azərişıq" ASC-nin 199 çağrı mərkəzinə, onlayn isə info@azerishiq.az elektron poçt ünvanına müraciət etməklə qeydiyyatdan keçə bilərlər.

Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq, qəbulda peyvənd və ya immun sertifikatı, eləcə də əks-göstəriş sertifikatı olan şəxslər iştirak edə bilərlər.

## Şəkidə tütün əkini ilə əlaqədar indiyədək 96 fermerlə müqavilə bağlanılıb

Şəki rayonunun təsərrüfatlarında tütün əkininə hazırlıq işləri davam etdirilir. Cari təsərrüfat ilində rayonda 1250 hektar sahədə tütün əkini proqnozlaşdırılır. Şəkili fermerlər bu il 917 hektar sahədə "Virciniya botaniki", 333 hektarda isə digər növ tütün yetişdirəcəklər.

Bu barədə AZƏRTAC-a Şəki Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Sahib Abdulhəmidov məlumat verib. Qurum rəsmisi bildirib ki, tütün əkini ilə əlaqədar bu günədək 96 fermerlə müqavilə bağlanılıb və hazırda proses davam etdirilir. Bağlanılan müqavilələr üzrə tütün əkiləcək sahələr hələlik 689 hektar təşkil edir. Tütün şitillərinin yetişdirilməsi üçün istehsalçılar tərəfindən 62,5 min kvadratmetr sahədə sadə istixanalar hazırlanaraq toxum səpilib. Şitillərin aprelin 20-dən sonra sahələrə köçürülməsi nəzərdə tutulur. Hazırda tütün əkiləcək sahələr təkrar şumlanır, malalanır.

## "Kənddən şəhərə" yarmarkaları martın 12-19-da fasiləsiz fəaliyyət göstərəcək

**Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Novruz bayramı ilə əlaqədar olaraq 12-19 mart tarixlərində "Kənddən şəhərə" yarmarkaları təşkil olunacaq.**

Bakı və Abşeron ərazisində üç fərqli ünvanda keçiriləcək yarmarkanın təşkilində əsas məqsəd bayram günlərində vətəndaşların kənd məhsullarına artan tələbatlarını yerli və sağlam məhsullarla qarşılamaq və yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı təşkil etməkdir.

"Kənddən şəhərə" Novruz yarmarkalarında satışa çıxarılacaq məhsullar müxtəlif regionlarda fəaliyyət göstərən və iştirak üçün əvvəlcədən qeydiyyatdan keçən fermerlər tərəfindən alıcılara təqdim olunacaq. "Kənddən Şəhərə" Novruz yarmarkalarında 50-ə yaxın regiondan 100-dən artıq fermer 50-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcək.

Satışa çıxarılan məhsulların keyfiyyətinə nəzarət etmək məqsədilə yarmarkalarda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar yarmarkada satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilərlər.




Qeyd edək ki, bayram yarmarkası karantin rejiminin tələblərinə əməl olunmaqla baş tutacaq. Yarmarkada iştirak edəcək fermerlər ödənişsiz şəkildə piştaxta, tərəzi və digər avadanlıqlarla yanaşı, tibbi ləvazimatlarla (tibbi maska, dezinfeksiyaedici maddələr, əlcək və s.) da təmin olunacaqlar. Yarmarkaya alış-verişə gələcək vətəndaşlar temperaturları ölçüldükdən sonra yarmarka ərazisinə buraxılacaqlar. Həmçinin yarmarkanın keçiriləcəyi müddətdə təşkilatçı qurum tərəfindən yarmarka ərazisində mütəmadi olaraq dezinfeksiya işləri aparılacaq və ziyarətçilərin sosial məsafəni qorumasına ciddi nəzarət olunacaq.

VƏTƏN SƏNƏ OĞUL DEYİR

# Adı dillərdə, igidliyi əllərdə dolaşan qəhrəman

## Xüsusi təyinatlı gizir Orxan Cabbarov erməni polkovnikini əlbəyaxa döyüşdə məhv edib



**...Düşmənə layiq olduğu cəzanı verib şəhidlik zirvəsinə ucalan 25 yaşlı xüsusi təyinatlı dəstənin kəşfiyyatçısı, gizir Orxan Cabbarov Şuşanın azad olunmasında adını hərb tarixinə yazanlardan biridir.**

Cabbarov Orxan Rövşən oğlu 1995-ci il oktyabrın 16-da Tovuz rayonunda anadan olub. 2002-2008-ci illərdə Rusiya Federasiyasının Vladivostok şəhərindəki 34 saylı orta məktəbdə oxuyub. Ailə Vətənə döndüyü üçün Orxan 2008-2013-cü illərdə 179 saylı Binəqədi rayon tam orta məktəbində təhsilini davam etdirib. O, uşaqlıqdan idmana böyük maraq göstərib. Ona görə də sərbəst güləş və karate ilə məşğul olub.

Orxan Cabbarov 2013-cü ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət edib. Həmin müddətdə Xüsusi Təyinatlı Qüvvələrin 6 aylıq kursuna yazılıb. Kursu bitirdikdən sonra müddətdən artıq hərbi qulluqçu kimi xidmət etməyə qərar verib. 2015-ci ildən Vətən müharibəsinə qədər Xüsusi Təyinatlı Qüvvələrin Cəlilabad və Xızı rayonlarında yerləşən hərbi hissələrində də olub. 2016-cı ilin aprelində Talış istiqamətində döyüşlərdə iştirak edib.

Gizir Orxan Cabbarov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Xocavənd və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə şücaət göstərib. O, Ermənistan silahlı qüvvələrinin polkovnikini əlbəyaxa döyüş zamanı məhv edib. Bu cəsur, qorxmaz kəşfiyyatçı da düşmən gülləsindən yayınmayıb, noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid zirvəsinə ucalıb. Tovuz rayonunun Bozalqanlı kəndində atasının məzarı yanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpasındakı xüsusi xidmətlərinə, işğal edilmiş ərazilərin azad olunması zamanı göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman göstərdiyi igidliyə və mərdliyə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalına layiq görülən Orxan Cabbarov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adını qazandı. "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə də təltif edilən Orxan Cabbarovun adı şəhidliyindən sonra Tovuz rayonunun Qovlar şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyaya verilməklə əbədiləşdirildi. Binəqədi rayonunun Biləcəri qəsəbəsində isə şəhidin adına küçə verildi.

Düşmənin canına vəlvələ salan "Canavar" ləqəbli Orxan Cabbarovun anası Yeganə xanımın söylədikləri əslində, bir məqalə həcminə sığmayan dastandır: "...Orxanımı, deyəsən, biz doğmalardan daha çox döyüşçü dostları yaxşı tanıyıblar. Onun haqqında eşitdiklərimizdən ancaq qürurlanmaq olar. Xüsusi təyinatlı olmaq arzusunda idi. Həmin kursu keçməyi hər əsgər bacarmır. Lakin Orxan buna nail oldu. XTQ sıralarında öz layiqli yerini almışdı. Müddətdən artıq hərbi qulluqçu kimi Aprel döyüşlərində Talışkənd uğrunda savaşdı..."

Ananın nitqi burada tutulur. Öyrənirik ki, 30 sentyabr 2018-ci ildə ailə qurub. Bundan sonra 3 ay Cəlilabadda yaşayıblar. Orxan güclü istehkamçı olub. Sifarişlə başqa hərbi hissələrə göndərilirmiş. Öz istəyi ilə 2019-cu ildə "Yaşma"da xidmətə başlayıb. Həmişə idman yarışlarında ön sıralarda yer tuturmuş. Buna görə Orxana diplom da verilib. Təlimlərdə xüsusi hazırlıqlar, qayaya dırmaşmalar, bıçaq atmalar, əlbəyaxa döyüşlər və s. kimi vacib təlimlərdə fərqlənirdi. Orxan Cabbarov bununla sanki düşmənlə əlbəyaxa döyüşlərə hazırlaşırdı.

Bu ailə döyüşlərə iki oğul verib. Orxanın kiçik qardaşı Ruslan da döyüşlərdə topçu kimi fəallığı ilə seçilib. Bu gün Vətən müharibəsi iştirakçısı kimi tanınan Ruslan qardaşının qəhrəmanlıqlarla dolu döyüş yolundan fəxrlə söz açır: "Döyüşlərdə tez-tez ailə ilə əlaqə saxlaya bilməsə də, hərdən zəng edib deyirmiş: "...Biz yaxşıyıq. Nigaran olmayın, "Bala Canavar"a yaxşı baxın!.." "bala canavar" isə onun yeganə yadigarı Ayxan idi..."

Nənəsi Gülsüm deyir ki, oğlum olmadığı üçün nəvəm Orxanı körpəlikdən qucağımda balam kimi böyütmüşdüm: "...Orxan 2015-ci ildən müddətdən artıq hərbi qulluqçu kimi xidmətə başlamışdı. 2016-cı ilin Aprel döyüşlərində iştirak edib: "Aprel döyüşlərində yaralansa da, ön cəbhədən sağ-salamat çıxmışdı..."

Anası Yeganə xanım fikrini yenidən cəmləməyə çalışır: "Son zəngi oktyabrın 30-da Qubadlı şəhərindən gəlmişdi. Oktyabrın 16-da 25 yaşı tamam olmuşdu. Ad günündə əlbəyaxa döyüşdə, təkbaşına erməni polkovnikini məhv edən cəsur balam oktyabrın 25-də qolundan yaralanıb, hospitalda müalicə alıb. Bunu heç kimə deməyib. Yarası sağalmadan "Yoldaşlarımı tək qoya bilmərəm",-deyib, könüllü döyüşə qayıdıb. Döyüş yoldaşının sözlərinə görə, çox cəsarətli, doğrudan da, canavar kimi imiş. Döyüşdə düşmən tankına tərəf irəliləyib. Elə həmin tankdan atılan mərmi nəticəsində kürəyindən qəlpə yarası alıb. Noyabrın 9-u şəhadətə yüksəlib. Övladımdan Ayxan adlı balası, bir də qəhrəmanlığı, şəhidliyi yadigar qalıb..."

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

# Qapanlının dünəni və bu günü

**Gözəl bir payız günü idi. Ağaclardakı yarpaqlar tək-tük saralmağa başlamışdı. Havada elə bir möhtəşəmlik vardı ki, adamın ruhu dincəlirdi. Qapanlı kəndinin sakinləri də bu gün mənfur qonşuların varlığını unudaraq toyda o ki var şənlənməyə istəyirdilər. Nofəl kişinin ailəsində də toya hazırlıq görülürdü.**



Müşgünaz nənə nəvəsi Zəhranı toya hazırlaşdırır və bundan xüsusi zövq alırdı. Cəmi 4 yaşı olan Zəhra toya gedəcəyi üçün hədsiz sevincliydi. Kənd uşaqları ilə oynamağa, rəqs etməyə hazırlaşırdı. Buna görə də ən qəşəng donunu da geyinmişdi.

Budur, Müşgünaz nənənin bacısı Mədinə nənə də gəlib çıxdı. Artıq toyun səsi də gəlirdi. Zəhra böyükləri tələsdirir, qonşuluqdakı toy mağarına uşaqlardan tez çatmağa can atırdı.

Uzun illər erməni quldurları ilə üzbəüz yaşamaq Qapanlı kəndinin camaatına belə şənliklərin sevincini bir qədər unutdurmuşdu. Amma hər kəs - uşaq da, böyük də buna ehtiyac duyurdu. Yaşanan gərginlikdən bir qədər uzaqlaşmaq, doyunca musiqi dinləmək, bir-birilə söhbətləşmək istəyirdilər. Qonaqlar gənc valideynlərə gözaydınlığı verir, dinc səma, əmin-amanlıq arzulayırdılar.

Qadınlar da toy mağarında əyləşmişdilər. Zəhra nənəsinin qucağında idi. Nənə istəyirdi ki, nəvəsi ləziz toy yeməklərindən dadıb sonra uşaqlarla oynamağa getsin. Hərdən balacaların əllərindəki şarlar, partladıcı vasitələr bir az təşviş yaratsa da, hər şey qaydası ilə gedirdi.

Qəfil səs yenə də camaatı diksindirdi. Amma hələ nə baş verdiyini heç kəs anlamadı. Dəhşətli ağrı hiss edən Müşgünaz nənə yanındakı bacısına baxdı və onun qolundan qan axdığını, qucağındakı uşağın isə başından yaralandığını gördü. Bir avtomat gülləsi ilə üç günahsız insanı, o cümlədən yaşlı iki qadını və bir körpəni yaralayan ermənilər yenə də bu şənliyi faciəyə döndərdilər.

Zəhranın ala gözlərində elə dəhşətli ağrı vardı ki... O, kiçik uşaq qəlbi ilə baş verənləri anlamırdı.

Çox çəkmədi ki, rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının işçiləri kəndə gəldilər. Yaralılar yardım göstərilməsi üçün xəstəxanaya göndərildi.

Hadisə 1 sentyabr 2015-ci ildə günorta vaxtı Tərtərin Qapanlı kəndində baş vermişdi.

Bu günlər Qapanlı kəndində olub yenidən Nofəl Əliyevin ailəsi ilə görüşdük. Öyrəndik ki, Zəhra artıq dördüncü sinifdə oxuyur. Xarici dili mükəmməl öyrənmək istəyir ki, 30 ildən çox bir müddət ərzində onların kəndində baş verənləri bütün dünyaya yaysın. Nəinki onların kəndində, elə tarixboyu ermənilərin azərbaycanlıların başına açdıqları müsibətlərin unudulmaması üçün o, nələr edəcəyi barədə indidən düşünür. Məktəb dərslərindən əlavə, hazırlıqlara gedir, uşaq yox, əsl böyük ciddiliyi ilə öz üzərində çalışır.



Zəhra deyir ki, o hadisə zamanı cəmi 4 yaşı vardı, ancaq bu gün də həmin vaxt keçirdiyi həyəcanı unuda bilmir. Nənəsi, nənəsinin bacısı həm yarımcan olublar, həm də xəstəlik tapıblar.

Uşağı bir sual düşündürür: axı, biz ermənilərə neyləmişdik? O, bu sualın cavabını tapa bilmir. Hələlik isə 30 il ərzində düşmənlərin bu kəndin başına gətirdikləri müsibətlər haqqında söhbətləri dinləyir. Dinləyir ki, bunları heç zaman unutmasın.

Bir ailədə baba, nənə, oğul və nəvə erməni gülləsindən yaralanıb. Özü də bunların hamısı müharibə zamanı yox, atəşkəs vaxtı baş verib. Qapanlıda yalnız bu ailənin deyil, kimin qapısını döysən, ya şəhid verdiyini, ya yaralı olduğunu, ya da ev-eşiyinin dağıldığını öyrənəcəksən.

Bu hadisələri törədənlər isə 30 il əvvələ qədər bu kəndin çörəyilə dolanan, sonda nankorluq edən qonşular olublar.

Nofəl kişi deyir ki, avtomat gülləsi ona elə həyətində oturduğu yerdə dəyib. 2000-ci ilin yanvar ayı idi. Hələ kəndin ətrafındakı istinad divarları tikilməmişdi. Ermənilər həyətləri aydın görürdülər. İnsanları qoyun otardıqları, əkin əkdikləri, toyuğa dən verdikləri zaman vururdular. Hətta iş o yerə gəlib çatmışdı ki, evin arxasındakı pəncərəyə nərdivan qoyub, qapıdan yox, pəncərədən həyətə düşürdülər. Bununla belə, evlərini tərk etmirdilər.

Ailənin kiçik oğlu Namiq isə traktorla sahədə işləyərkən snayperlə vurulub. Yaralar sağalsa da, bütün bu hadisələr səhhətlərində dərin izlər qoyub.

Vətən müharibəsi zamanı Qapanlı ermənilər tərəfindən ən çox atəşə məruz qalan kəndlərdən biri idi. Əhali bu müddətdə olmazın əziyyətlər çəkdi. Malqaraya, əkin-biçinə mərmi yağışı altında baxırdılar. Hamının evinə ziyan dəyirdi. Bununla belə, qəlblərdə elə böyük inam vardı ki, 30 illik əziyyətlərə son qoyulacaq, kənd nəfəs alacaq, bir daha nə Zəhralar, nə də başqaları yaralanmayacaq. 44 günlük Vətən müharibəsindəki Zəfər bu inamı gerçəkliyə çevirdi.

Müşgünaz nənə deyir:

- Qələbədən bir ildən artıq vaxt keçir, amma biz yenə də o günləri unuda bilmirik. Axır ki, Prezidentimizin, Ordumuzun sayəsində ev-eşiyimizdə rahat yaşaya bilirik. Doğma ocaq hər kəs üçün şirindir.

***

Bu kənddə uşaqlar tez böyüyürlər. 4 yaşında ikən erməni vəhşiliyi ilə üzləşən Zəhra da indi öz fikirləri ilə həmyaşıdlarından seçilir. Ancaq hamı kimi o da təhsil almaq, xoşbəxt olmaq istəyir. Bu belə də olacaq. Axı Zəhra da, Qapanlıda yaşayan digər uşaqlar da qalib xalqın övladlarıdır.

*Svetlana BAĞIROVA, "Yeni Tərtər" qəzetinin redaktoru*

# Dünya miqyasında 70-100 min arası kistoz fibrozlu xəstə var

Ölkəmizdə illik doğum sayı təxminən 150 minə yaxındır. Kistoz fibroz xəstəliyinin rastgəlmə tezliyi isə 5 mində birə bərabərdir. İldə bu xəstəliklə təxminən 30 nəfər doğulur. Lakin il ərzində bu sayda xəstə qeydə alınmır. Azərbaycanda 18 yaşdan yuxarı bir kistoz fibroz xəstəsi var.

AZƏRTAC xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin pediatriya sahəsi üzrə mütəxəssis-eksperti Erkin Rəhimov 12 Mart - Kistoz Fibroz Gününə həsr olunmuş "dəyirmi masa"da deyib.

Onun sözlərinə görə, həmin xəstəlikdən əziyyət çəkənlər 1930-cu illərdə bir yaşadək yaşayırdılar. Hazırda ümidverici müalicələr nəticəsində onlar daha çox yaşayırlar.

"Xəstəliyin kliniki əlamətləri çox duzlu dəri, inadçı öskürək, tez-tez təkrarlanan ağciyər infeksiyaları, təkrarlanan sinus infeksiyaları, nazal polipoz, xışıltı və nəfəs darlığı, yaxşı iştahaya baxmayaraq, inkişafdan geriqalma, çəki artmaması, çoxsaylı və həcmli yağlı nəcis və ya bağırsaq peristaltikasında problemlərdir", - deyə E.Rəhimov qeyd edib.

"Kistik Fibroz Xəstələrinə Yardım" İctimai Birliyinin sədri Səadət Bayramova bildirib ki, kistoz fibroz autosom-resessiv yolla ötürülən ən çox yayılmış irsi xəstəlikdir. Xəstəliyin əsas səbəbi 7-ci xromosomda yerləşmiş gen mutasiyasıdır. Yer kürəsi əhalisinin hər 20 nəfərindən birində bu gen mutasiyası var və həmin şəxslər xəstəliyin daşıyıcısı hesab olunurlar. Hər iki valideyndən mutasiyalı genin ötürülməsi nəticəsində xəstə uşaq dünyaya gəlir. Bu zaman ekoloji vəziyyət, valideynin yaşı, spirtli içki, siqaret və dərman qəbulu heç bir rol oynamır. Mukovisidozun transmembran requlyasiyaedici genini daşıyan valideynlərin sağlam uşaq dünyayagətirmə ehtimalı 25, xəstə uşaq 25, daşıyıcı uşaq 50 faizdir.

Dünya miqyasında 70-100 min arası kistoz fibrozlu xəstə olduğunu deyən S.Bayramova kişilərdə və qadınlarda rastgəlmə tezliyinin eyni olduğunu bildirib. O, Azərbaycanda kistoz fibroz xəstəliyinin hansı tezlikdə rast gəlindiyinin hələ ki məlum olmadığını, xəstələrin əksəriyyətinin paytaxtdan, az bir qisminin isə rayonlardan olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, xəstə sayının az olma-




sı kistoz fibrozun olmaması demək deyil, diaqnostikada müəyyən problemlərin mövcudluğunun göstəricisidir. Real xəstə sayı isə çoxdur.

Təşkilatın sədri "Kistoz Fibroz Xəstələrinə Yardım" İctimai Birliyinin xəstə ailələri və könüllü həkimlər tərəfindən yaradıldığını və 2017-ci ildə rəsmi qeydiyyata alındığını qeyd edib. O, təşkilatın təsis edilməsində məqsədin kistoz fibroz xəstəliyi ilə bağlı maarifləndirmə aparılmasından, həmin xəstəlikdən əziyyət çəkənlərə kömək edilməsindən ibarət olduğunu deyib. O, Azərbaycanda martın 12-nin Kistoz Fibroz Günü kimi qeyd edildiyini də vurğulayıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, əlillik meyarları ilə bağlı normativ-hüquqi aktların təkmilləşdirilməsi aparılıb və həmin proses davam edəcək. İndiyədək əlillik meyarlarında kistoz fibrozun adı yox idi. İyulun 1-dən qüvvəyə minəcək əlillik meyarları və onların verilməsi qaydasının Avropa İttifaqının direktivlərinə, ən yaxşı beynəlxalq təcrübəyə uyğunlaşdırılması baxımından böyük normativ-hüquqi paket hazırlanıb. Ümumdünya Səhiyyə Təşkilatı həmin sənədi tam şəkildə araşdırıb, müsbət rəy bildirib. İki ilə yaxın müddət ərzində bütün dövlət qurumları bu sahədə iş aparıb. İyulun 1-dən kistoz fibroz xəstəliyi bir meyar kimi müəyyən ediləcək və bu, uşaqların əlilliyinin əldə edilməsi prosesini sürətləndirəcək.

Nazirin sözlərinə görə, on dörd uşağın kistoz fibrozla bağlı təyinatı aparılıb: "Proses davam edir və onu sürətli şəkildə yekunlaşdırmaq vacibdir, çünki sağlamlıq imkanları məhdud uşaqları olan ailəyə həmin meyar üzrə təyinat aparıldıqdan sonra maliyyə dəstəyi olaraq 200 manat müavinət, təqaüd olaraq isə əlavə 200 manata yaxın vəsait təyin olunur. Bu, həmin uşaqların müəyyən xərclərini qarşılamağa imkan verəcək".

Tədbir təqdimat və müzakirələrlə davam edib.

# Kliniki sınaqların aparılması üçün ölkəmizə 1200 doza "Turkovac" peyvəndi gətirilib

Bu gündən Azərbaycanda yeni növ koronavirusa (COVID-19) qarşı Türkiyə istehsalı olan "Turkovac" peyvəndinin 3-cü faza kliniki sınaqlarının aparılmasına başlanılır.

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar Bakı Sağlamlıq Mərkəzi ilə Türkiyənin Sağlamlıq İnstitutları Başkanlığı arasında protokol imzalanıb.

Protokolu Sağlamlıq mərkəzinin icraçı direktoru Asiman Həsənov və Türkiyənin Sağlamlıq İnstitutları Başkanlığının sədri Erhan Akdoğan imzalayıblar.

İmzalanma mərasimində Asiman Həsənov deyib ki, "Turkovac" peyvəndi Türkiyədə fəal şəkildə tətbiq edilir. Tədqiqatın məqsədi həmin peyvəndin ölkəmizdə "buster" doza kimi effektivliyini araşdırmaqdan ibarətdir. Onun verdiyi məlumata görə, ilkin dövrdə könüllülər üzərində sınaqlar aparılacaq və bir neçə ay ərzində peyvəndin yaxın və uzaq nəticələrini öyrənmək üçün onlar mütəmadi olaraq yoxlanılacaq, qan nümunələri götürüləcək laborator müayinələri aparılacaq: "COVID-19 əleyhinə "buster" doza alan könüllülərin ümumi skrinq müayinələri aparılacaq, həmin vaxt COVID-19-a yoluxub-yoluxmamaları, eləcə də digər ciddi patologiyalar araşdırılacaq. Qarşılıqlı şəkildə həmin şəxslərin "buster" dozaya uyğunluğu protokollaşdırıldıqdan sonra onlar "buster" doza şəklində kliniki sınaq mərhələsində iştirak edəcəklər".

Türkiyənin Sağlamlıq İnstitutları Başkanlığının sədri Erhan Akdoğan bildirib ki, peyvəndin yan təsirləri aşkarlanmayıb, qoruyuculuğuna görə digər təsdiqlənmiş peyvəndlərlə eyni təsir gücünə malikdir. İnoktivasiya olunmuş "Turkovac" Azərbaycanla bərabər Macarıstan, Polşa, Özbəkistan, Qırğızıstan, Pakistan və Argentina kimi ölkələrdə də sınaqdan keçiriləcək.

İmzalanma mərasimində Türkiyə Aşı İnstitutunun professoru Ateş Kara aparılan sınaqlardan danışarkən deyib: "Türkiyədə "Sinovac" və "Turkovac" peyvəndlərinin müqayisəli təhlili aparılıb. "Sinovac" peyvəndi vurulmuş 1100 xəstənin 43-də, "Turkovac" peyvəndi vurulmuş xəstələrin isə 23-də yoluxma müşahidə olunub. Bu, onu göstərir ki, onların arasında 50 faizə qədər fərq var və "Turkovac"la daha dayanıqlı immunitet qazanmaq olur. Ən başlıcası, peyvənd heç bir yan təsirə malik deyil, infeksiyaya qarşı çoxlu anticisimlər əmələ gətirmək qabiliyyətinə malikdir. Çox az hallarda bəzi xəstələrdə qolda ağrı verir, lakin bu da cəmi 12 saat davam edir. Həm də peyvənd edilənlər arasında xəstəxanaya düşmə halları müşahidə olunmur".

Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun direktoru, professor Adil Allahverdiyev inoktiv "Turkovac" peyvəndinin üstün keyfiyyətlərindən danışıb və onun "buster" doza kimi tətbiqi sınaqlarının uğurlu olacağını deyib.

Onu da qeyd edək ki, kliniki sınaqların aparılması üçün ölkəmizə 1200 doza "Turkovac" peyvəndi gətirilib.

# Ermənistan üçün böyük şans yaranıb

## İrəvan kommunikasiyaların bərpasını yeganə çıxış yolu olaraq görür

Regionda davamlı sülh və əməkdaşlıq əlaqələrinin formalaşması Azərbaycan üçün prioritet istiqamətlərdən birini təşkil edir. Kommunikasiyaların açılması sülh prosesində mühüm və mümkün irəliləyiş olaraq qəbul edilir.

Rəsmi Bakının qənaətinə əsasən, kommunikasiyaların bərpası Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşmasına xidmət etməklə yanaşı, iki ölkə üzərindən ticarət və nəqliyyat daşımalarını əhəmiyyətli dərəcədə artıracaq. Proseslərin bu səpkidə inkişafı Azərbaycan və Ermənistana mühüm dividendlər qazandıracaq, eyni zamanda bu ölkələrlə tərəfdaş münasibətində olan dövlətlərə böyük fayda verəcək.

### Zəngəzur dəhlizinin açılması Ermənistanın xilası olacaq

Bu günlərdə Ermənistanın baş naziri Nikol Paşinyan da bunu etiraf etməyə başlayıb. O, ölkəsinin yaranmış ağır sosial-iqtisadi böhrandan çıxmasının yeganə yolunun Azərbaycanla normal münasibətlər qurulmasından keçdiyini anlayır. Yeni prezidentin seçilməsi də Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması ehtimallarını gücləndirir, çünki Vahan Xaçaturyan öz çıxışlarında Ermənistanla, regionda olan dövlətlərlə sülh, təhlükəsizlik və əmin-amanlıq şəraitində yaşamağın daha üstün olduğunu bildirir, özünü sülh tərəfdarı kimi göstərir. Bir sözlə, hər ötən gün sülh müqaviləsini daha da yaxınlaşdırır.

"İravunk" qəzeti yazır ki, Paşinyanın prezidentlik postuna öz adamını təyin etməsi və son çıxışlarında səsləndirdiyi fikirlər fonunda bir daha nümayiş olundu ki, kommunikasiyaların bərpa olunması Ermənistan üçün böyük şansdır: "Daha dəqiq desək, ölkə iqtisadiyyatı tamamilə çökmək üzrədir. Rəsmi açıqlamalara görə, Ermənistanda iqtisadi fəallıq daha sürətlə azalır, ölkə sənayesində ciddi geriləmə qeydə alınır. Həmçinin pərakəndə əmtəə dövriyyəsində də kəskin azalma müşahidə olunur. Ölkədə son illər ərzində enerji tariflərinin kəskin yüksəlməsi və əhalinin həyat səviyyəsinin pisləşməsi vətəndaşların sosial narazılığını artırır. Regionlar, qlobal layihələrdən kənarda qalmağımız da prosesə birbaşa təsir edir. Ermənistan qlobal kommunikasiya layihələrindən kənarda qalmaqla son 30 ildə özünə qəsd edib. Ölkəmiz coğrafi baxımdan qlobal kommunikasiyaların tərkib hissəsi ola bildiyi halda, bu şansı itirmişdir. Sülh müqaviləsinin imzalanmasından, Zəngəzur dəhlizinin açılmasından sonra Ermənistan qazanan tərəf olacaq".

Erməni siyasi şərhçi Ruben Levonisyan da bildirir ki, kommunikasiyaların açılması, sərhədlərin müəyyən edilməsi ölkəsinin düşdüyü blokada vəziyyətindən xilası olacaq: "Zəngəzur dəhlizi, sülh müqaviləsi bütün tərəflərin milli maraqlarına tam cavab verir. Ermənistan hakimiyyəti bu məsələni uzatmaqla məhvini qaçılmaz edir. Gec də olsa Paşinyan bunu anlamağa başlayıb. Zəngəzur dəhlizi Ermənistanın xilası olacaq. Üçtərəfli Bəyanatın 9-cu bəndində göstərilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Bəyanatın bu bəndi Zəngəzur dəhlizinin reallaşması istiqamətində hüquqi zəmin yaradır. Yəni Ermənistan bu dəhlizin açılması üçün üzərinə götürdüyü öhdəliyi yerinə yetirməlidir. Əgər bu, baş verməsə, Azərbaycan yenə güc tətbiq etmək məcburiyyətində qalacaq".

Bu arada Zəngəzurda yaşayan ermənilərin təcili olaraq, dəyərdəyməz qiymətə evlərini, torpaq sahələrini satmağa başlaması prosesi daha da sürətlənib. Qeyd olunur ki, Zəngəzur daşınmaz əmlak bazarında canlanma son bir neçə aydır davam edir. Əmlak məsələləri üzrə mütəxəssis Henrix Aşotyan bildirib ki, evlərini dəyər-dəyməzə, təcili şəkildə satmaq istəyən çox, alıcı qüvvəsi isə, demək olar ki, sıfır səviyyəsindədir: "Hamı özü və ailəsi üçün təhlükəsiz yer axtarır. Belə getsə, yaxın vaxtlarda Zəngəzurda bir dənə də erməni ailəsi qalmayacaq".

Əslində, Zəngəzurda evlərin satışa çıxarılması ilə bağlı məlumatlar yeni deyil. Bir neçə ay əvvəl də bununla bağlı məlumatlar var idi. Ancaq getdikcə daha çox erməni öz mənzilini satışa çıxarıb. Bir müddət əvvəl xarici təşkilatlardan biri bəyan etmişdi ki, Ermənistanın Azərbaycanla sərhəd rayonlarından miqrasiya daha çox olacaq. Görünən odur ki, proqnozlar artıq özünü doğruldur.

### Sülh sazişinin imzalanma prosesini Ermənistan qəsdən uzadır

Bu bir reallıqdır ki, Vətən müharibəsinin Azərbaycanın şanlı Qələbəsi ilə başa çatmasından sonra Cənubi Qafqazda yeni geosiyasi proseslərin başlanğıcı, regionun tarixində yeni eranın əsası qoyuldu.

İndi bölgədəki bütün proseslər məhz Azərbaycanın şəksiz liderliyi və diktəsi altında cərəyan edir. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması ilə bölgədə təhlükəsizlik mühiti, davamlı sabitliyə və əmin-amanlığa əlverişli şərait yarana bilər.

Azərbaycan üzərinə düşən öhdəlikləri yerinə yetirməkdə tam qərarlı olduğu halda, Ermənistan bu məsələlərin həllini bilərəkdən yubadır. Ermənistan rəsmiləri tez-tez barışıq xarakterli müxtəlif bəyanatlar versələr də, konkret ortaq işdən söhbət gedəndə müxtəlif bəhanələrlə ondan çəkinirlər. Müharibədəki acı məğlubiyyətdən sonra belə ABŞ və Fransadakı erməni diasporu, eləcə də Ermənistandakı bəzi məkrli qüvvələr öz həmvətənlərinin baxış bucağını zəhərləməyə davam edir, revanşist hisslərdən vaz keçmək istəmirlər.

Prezideni İlham Əliyev də bəyan edib ki, Ermənistanla sülh müqaviləsini imzalamağa hazır olsaq da, onlar tərəfindən buna rəsmi reaksiya verilmir: "Qeyri-rəsmi kanallarla bizə çatan məlumat budur ki, Ermənistan buna hazır deyil. Hesab edirəm, bu, çox böyük bir səhv olacaq. Necə ki, müharibə ərəfəsində və müharibə dövründə Ermənistan tərəfi böyük səhvlər buraxıb, hərbi cinayətlər törədib. Bu, növbəti böyük səhv ola bilər".

Ermənistanın sülh sazişini bağlamaqdan müxtəlif bəhanələrlə yayınması Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərini tanımaması anlamına gəlir. Bu o deməkdir ki, Ermənistan Azərbaycanla mehriban qonşuluq və sülh şəraitində, dinc yanaşı yaşamaqdan imtina edir. Məğlub ölkənin yeni avantüraları onu tam tənəzzülə uğrada bilər. İqtisadiyyatı bərbad vəziyyətdə olan, ordusuz qalan Ermənistan sülh sazişindən imtina edərsə, itirən yenə də özü olacaq.

*Elçin CƏFƏROV, "Azərbaycan"*



# Karantində yeni qaydalar

## Yumşalma arxayınlaşmağa əsas vermir

**Sürətli yayılmasına baxmayaraq, COVID-19-un "Omikron" variantının "Delta"ya nəzərən ciddi narahatlıq doğurmaması və hələlik yeni variantların ortaya çıxmaması dünyanın nisbətən rahat nəfəs almasına səbəb olub. Mütəxəssislərin isə qənaəti budur ki, peyvənd olunan və xəstəliyə yoluxmuş insanların say çoxluğu qarşıdakı dövrdə koronavirusa qarşı immunitet qazanılmasını sürətləndirəcək. Bütün bu sadalananlar isə yayı rahat keçirməyimizlə bağlı nikbin proqnozlara səbəb olur.**

Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Bürosunun direktoru Hans Kluge də ötən həftə keçirdiyi brifinqdə bildirib ki, ÜST-ün Avropa Regionunda COVID-19-a yoluxma və ölüm hallarının sayı fevralın 10-dan bəri durmadan azalır.

Eyni zamanda Kluge region ölkələrini "peyvənd və yüksək sayıqlığın dəstəyi ilə nikbinliyi tarazlamağa" çağırıb.

### Əksər məhdudiyyətlər aradan qaldırılıb

Azərbaycanda yeni növ koronavirusun üzə çıxdığı ilk gündən etibarən ona qarşı bütün sahələr üzrə effektiv mübarizə aparılır. Respublikamız əhalinin kütləvi vaksinasiyasına başlayan ilk ölkələr sırasındadır və artıq yetkin əhalinin 68 faizinə peyvəndin hər iki dozası vurulub. Pandemiyaya qarşı aparılan digər təsirli mübarizələrlə yanaşı, vaksinasiya prosesinin sürətli getməsi qapanmaların açılmasına da səbəb olub.

Martın 6-dan Azərbaycanda karantin rejimi yumşaldılıb. Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qəbul edilən qərara əsasən, dövlət orqanlarında (qurumlarında) vətəndaşların yerində qrup və fərdi qaydada qəbuluna, dini ritual xidmətlərinin, eləcə də mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin təşkilinə və keçirilməsinə, bütün kütləvi tədbirlərin, o cümlədən idman tədbirlərinin keçirilməsinə, ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadəyə, masaj xidmətlərinin göstərilməsinə və sərnişinləri qarşılayan və yola salan şəxslərin hava limanının terminalına girişinə icazə verilib.

Eyni zamanda mədəniyyət obyektlərinin, eləcə də kinoteatrların, teatrlar və konfrans zallarının, istirahət və əyləncə məkanlarının, həmçinin uşaq əyləncə məkanlarının (bulvar və parkların ərazisində olanlar da daxil olmaqla), habelə iri ticarət mərkəzlərinin nəzdindəki uşaq və digər əyləncə mərkəzlərinin, kinoteatrların fəaliyyəti ilə bağlı vaxt və say məhdudiyyəti, dini ibadət yerlərinə tətbiq edilən say və eyni vaxtda ibadət üçün nəzərdə tutulan yerlərlə bağlı faiz məhdudiyyəti, şənlik mərasimlərinin (toy, nişan, ad günləri və s.) keçirilməsi ilə bağlı vaxt və say məhdudiyyəti, ictimai iaşə obyektlərində, eləcə də restoran, kafe, çay evləri və bu kimi digər məkanların fəaliyyəti ilə bağlı vaxt məhdudiyyəti, həmçinin hər bir masa arxasında 6 nəfərdən artıq toplaşmaqla bağlı məhdudiyyət, pandemiya dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu zamanı tətbiq edilən adambaşı sıxlıq normaları və 10 nəfərdən artıq şəxsin iştirakı ilə tədris və repetitor xidmətlərinin həyata keçirilməsi məhdudiyyəti ləğv edilib.

### COVID-19 pasportlarının təqdim olunması, qapalı yerlərdə maskadan istifadə etmək qaydası qüvvədədir

Fəaliyyətinə icazə verilən xidmətlərdən (işlərdən) yalnız etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatı və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədi, yaxud COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatı olan şəxslər (yaşı 18-dən aşağı olan şəxslər istisna olmaqla) istifadə edə bilərlər.

Məhdudiyyətlərin ləğv olunması şamil olunan iş və xidmət sahələrində koronavirus infeksiyasına qarşı Nazirlər Kabinetinin qərarları ilə müəyyən edilmiş digər tələblər (girişlərdə COVID-19 pasportlarının təqdim olunması, qapalı yerlərdə maskadan istifadə və s.) qüvvədə saxlanılır. Tətbiq edilən tələblərə riayət olunmasını təmin etmək məqsədilə müvafiq nəzarət tədbirlərinin icrasına davam ediləcək, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması aşkar edildiyi hallarda fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq məsuliyyətə cəlb ediləcəklər.

Bütün bunlarla yanaşı, yumşalma arxayınlaşmağa əsas verməməlidir. Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə sosial məsafənin qorunması və əl gigiyenası kimi ümumi qaydalara, habelə metodiki göstərişlərdə qeyd olunmuş tövsiyələrə riayət olunması zəruridir.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*







# İsrafçılıq günah və ailə büdcəsinə zərbədir

## Hər gün və elə bayramda da buna yol verməyək !

**Milli-mənəvi dəyərlərimizin aynasına çevrilən vasitələrdən biri də məhz qarşılamağa hazırlaşdığımız Novruz bayramıdır. Bu əvəzsiz bayramın atributları sırasında süfrəyə düzdüyümüz nemətlərin öz yeri var.**

Bayramqabağı ailə başçılarının hər biri Novruza layiq bazarlıq etməyə çalışır. Qızgəlinlər min arzu-kamla şəkərbura naxışlayırlar. Mətbəxi çoxdandır ailənin cavan xanımlarına "təhvil vermiş" ağbirçəklər də işə qoşulur, qol çırmayıb aşı özləri dəmləyirlər. Uşaqlar isə hələ süfrə açılmadan bayramın ləziz təamlarını həzm-rabədən keşirməyə başlayırlar.

Lakin... Bu bayramda evimizdəki naz-nemətlərin nə qədər bol, sovqat boxçalarımızın çoxçeşidli, süfrələrimizin adi günlərdəkindən daha dolu olmasına çalışsaq da, mütləq israfçılığa yol verməməyə çalışmalıyıq.Təəssüf ki, bu, bir çox hallarda qaçılmaz olur.

Novruz elə bir bayramdır ki, qohum-qonşu, dost-tanış bəzən heç əvvəlcədən demədən də sənin qapını aça bilər. Odur ki, bayram süfrəsinin tədarükündə, necə deyərlər, qəfil qonağın gəlişi də nəzərə alınır. Üstəlik, özümüz də əzizlərimizlə bayramlaşmağa əliboş getmirik, öz biş-düşümüzdən pay aparmaqdan məmnunluq duyuruq. Nəticədə, sadə dillə desək, bütün bunları yeyib qurtarmaq olmur. Xörəklər, bişintilər boyatlaşır, çərəzlər xonçalarda büzüşüb quruyur. Bir sıra hallarda köhnəlir, yemək üçün yararsız olur və atılır.

Yeri gəlmişkən, məişət tullantıları atılan qutu və yeşiklərə istifadə olunmamış nə qədər çörək, xörək qalıqları atıldığını adi günlərdə də çox görürük. Uşaqlıqda süfrə arxasında şuluqluq salanda, səliqəsizlik edib yeməyi ətrafa dağıdanda nənəmiz bizi qorxudardı ki, baxın a, bərəkət adamın gözünü tökər. Dağ vüqarlı babalarımızın döşəmənin üstünə düşmiş çörək qırıntısını əyilib yerdən götürdüyünün, öpüb gözünün üstünə qoyduğunun da az şahidi olmamışıq. İndi nə olub bizə? Bolluğa naşükürlük edirik. Axı Azərbaycan xalqı şükürnemət xalqdır.

Əl boyda bir parça çörək neçə-neçə insanın zəhmətinin bəhrəsidir, əkinçinin, biçinçinin, dəyirmançının, çörəkçinin, sürücünün, satıcının alın təri ilə ərsəyə gəlir. Elə biz özümüz də onu zəhmətlə qazanıb süfrəmizə gətiririk.

Hələ onu demirik ki, planetimizin ayrı-ayrı yerlərində indinin özündə də aclıq çəkən insanlar, uşaqlar, qocalar var... Ataların sözüdür: "Bir loğma bir bələn aşırar." Yəni bircə tikə çörəyi yeməklə bir dağı aşmağa güc alarsan. Odur ki, onun qədrini bilməliyik. İsrafçılığa yol verməməliyik. İstər adi günlərdə, istərsə də bayramlarda.

Koronavirus pandemiyasının dünyanın hər tərəfində iqtisadiyyata, insanların maddi durumuna vurduğu zərbələr, yaratdığı çətinliklər fonunda bu məsələ xüsusi aktuallıq kəsb edir. Azərbaycan dövləti belə bir şəraitdə dünyada baş verən bahalaşmanın ölkəmizə təsirinin minimum olması üçün geniş tədbirlər görür. Nazirlər Kabinetinin keçən ay imzalanan "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" sərəncamı da məhz bu məqsədə xidmət edir. Biz də hamılıqla bu məsələdə dövlətimizə hərtərəfli dəstəkçi olaq. O cümlədən qismətimiz olan hər nemətə hörmətlə yanaşaq, israfçılığa yol verməyək!

...Əziz bayramımız Novruza sanılı günlər qalır. Yurdumuzun hər yerində onu layiqincə qarşılayıb qeyd etmək üçün hazırlıq görülür. Səxavətlə bol süfrələr açaq, torpağımızın yetişdirdiyi ən ləziz təamları gətirək ortaya. Amma o həddə qədər ki, sonra artıq qalan boyat aşı, kif atan qoğalı, xonçada qurumuş noğulu,iydəni sellofan torbalarda tullantı yeşiklərinə atmayaq.

"Atmaq" demişkən, qızgəlinlər də ürəklərində niyyət tutub göyərtdikləri səməni bayramdan sonra haraya gəldi tullamasınlar. Bir sıra bölgələrimizdə xanımların Novruzdan sonra çay qırağına gəlib səməniləri axar suya atmaq kimi ənənəsi var. Axar su olmayan ərazilərdə isə onları ən azından təmiz, əl-ayaq dəyməyən bir məkana qoymaq mümkündür. Axı o, qədəm qoyan baharın müjdəsi olduğu və buğdadan cücərdiyi üçün müqəddəsdir... "Səməni, ay səməni, hər il göyərdərəm səni" arzularımız qoy çin olsun!

*Flora SADIQLI, "Azərbaycan"*


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan müxtəlif təyinatlı xortumların satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 mart 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan ipli çəkmələrin satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 mart 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan kran ehtiyat hissələrinin satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 30 mart 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 22.01.2022-ci il tarixdə 240 MVt gücündə Külək-Elektrik stansiyalarının mövcud enerjisistemə inteqrasiya işlərinin və Cəbrayıl Enerji Qovşağının tikintisi (1-ci mərhələ) işlərinin satın alınması məqsədi ilə elan edilmiş müsabiqələr çərçivəsində sənəd vermiş iddiaçıların sayı üçdən az olduğundan "Dövlət satınalmaları haqqında" qanunun 11.1. bəndinə əsasən tenderin davamından imtina edilir.

*Tender komissiyası*


# Fransa seçim qarşısında



Fransada gələn ay keçiriləcək seçkilərdə Konstitusiya Şurası tərəfindən prezidentliyə 12 namizəd təsdiqlənib. Qeydiyyat müddətinin bitməsinə bir gün qalmış dövlət başçısı Emmanuel Makron namizədliyini irəli sürüb.

Fransa Konstitusiya Şurasının sədri Loran Fabiusun dediyinə görə, ümumilikdə 65 namizəddən ərizə alınıb: "Biz onlardan hansının ən azı 30 departamentdən 500-dən çox mer və bələdiyyə müşavirinin imzalarını topladığını yoxladıq".

### 12 namizəddən yalnız 5-nin 10 faizdən çox səs toplaya biləcəyi gözlənilir

Fransa prezidenti vəzifəsi uğrunda bu siyasətçilər mübarizə aparacaqlar: hazırkı Prezident Emmanuel Makron, sağ-mərkəzçi Respublikaçılar Partiyasının namizədi Valeri Pekres, "Rekonkista" Partiyasının əsasını qoyan ifratsağçı baxışların tərəfdarı Erik Zemmur, ultrasağçı milliyyətçi "Milli cəbhə"("Milli birlik") Partiyasının lideri Marin Le Pen, solçu "Yenilməz Fransa" Partiyasının rəhbəri Jan-Lük Melanşon, Kommunist Partiyasının milli katibi Fabyen Russel, sağçı "Qalx ayağa, Fransa!" Partiyasının lideri Nikola Düpon-Enyan, Sosialistlər Partiyasının təmsilçisi, Parisin meri Ann İdalqo, "Avropa - Ekologiya - Yaşıllar" Partiyasının üzvü Yannik Jado, marksist və trotskist siyasətçi, "Fəhlə mübarizəsi" Partiyasının milli nümayəndəsi Natali Arto, millət vəkili Jan Lassal və ifratsolçu baxışların tərəfdarı Filip Putu.

Sorğuların nəticələri göstərir ki, 12 namizəd arasında yalnız beşinin 10 faizdən çox səs toplaması gözlənilir.

Sosialist "Yenilməz Fransa" Partiyasının namizədi Jan-Lük Melanşon üçün bu, artıq üçüncü seçki olacaq. 2012-ci ildə keçirilmiş seçkilərin ilk turunda o, 11,1 səslə 4-cü yerdə qərarlaşmış, ikinci turda isə prezident seçilmiş Fransua Olландın namizədliyini dəstəkləmişdi. 2017-ci ildə Melanşon birinci turda 20 faizə yaxın səs qazanaraq 4-cü yeri tutmuşdu. Lakin bu seşkilərdə ona iki dəfə az seçicinin səs verməsi gözlənilir.

Qatı ermənipərəst siyasətçi Valeri Pekres Respublikaçılar Partiyasından ilk qadın namizəd oldu. O, Nikola Sarkozi hökumətində təhsil və büdcə nazirləri vəzifələrində çalışıb. Pekresə 11-15 faiz seçicinin səs verəcəyi proqnozlaşdırılır. Xatırladaq ki, bir müddət əvvəl o, İrəvana səfər etmiş, oradan isə qanunsuz olaraq Xankəndiyə yollanmışdı. Həmin səfərdən dərhal sonra Fransanın Bakıdakı səfiri Azərbaycan XİN-ə çağırılıb və ona etiraz notası verilib. Xarici İşlər Nazirliyinin müvafiq bəyanatında Pekresin Xankəndiyə səfəri qanunsuz adlandırılıb və fransalı prezidentliyə namizəd persona non qrata elan olunub.

### Seçkilərdə əsas sürpriz

Bu seçkilərdə əsas sürpriz keçmiş jurnalist və yazıçı, daha bir ermənipərəst ifratsağçı mühafizəkar milliyyətçi siyasətçi Erik Zemmurun yaratdığı "Rekonkista" partiyasından özünün namizədliyini irəli sürməsi olub. Onun reytinqi 12 faizdən 16 faizə qədər dəyişir.

Qeyd edək ki, ötən ilin dekabrında Ermənistana səfər edən Zemmur anti-Türkiyə, anti-Azərbaycan, islamofob, irqi ayrı-seçkilik siyasəti yürüdür.

Zemmurun meydana çıxması digər ultra-sağçı namizəd - "Milli cəbhə" ("Milli birlik") Partiyasının lideri Marin Le Penin seçkiqabağı strategiyasına mənfi təsir göstərib. Buna baxmayaraq, sorğular göstərir ki, milliyətçi siyasətçi hələ də Makrondan sonra əsas namizəddir.

Marin Le Pen 2017-ci ildə də rəsmi olaraq prezident seçkisi kampaniyasına qoşulub və daha mötədil namizədə - Emmanuel Makrona uduzub.

"İrəli, Respublika!" Partiyasının rəhbəri və hazırkı Prezident Emmanuel Makron son həftələrdə rəqiblərdən səslərin bir neçə faizini geri ala bilib. Proqnozlara əsasən, birinci turda o, 23 faizdən 28 faizə qədər səs qazana bilər.

1965-ci ildən bəri Fransada prezident yalnız ikinci turda seçilib.

Fransada növbəti prezident seçkiləri 2022-ci il aprelin 10-da baş tutacaq. İkinci tura ehtiyac olacağı təqdirdə iki həftə sonra keçiriləcək.

Bu, Fransanın Beşinci Respublikasında on ikinci prezident seçkisi olacaq.

Xatırladaq ki, Makronun iki sələfi - Nikola Sarkozi və Fransua Olland ikinci müddətə seçilməyib.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Aytac Əliyevanın qətlə yetirilməsində şübhəli bilinən şəxslər tutularaq cinayət məsuliyyətinə cəlb ediliblər

Xəbər verildiyi kimi, martın 5-də Aytac Əliyevanın qəsdən öldürülməsi ilə bağlı Qəbələ Rayon Prokurorluğunda cinayət işi başlanaraq istintaq aparılır.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, istintaqla 1993-cü il təvəllüdlü Rüfanə Nəbiyevanın zərərçəkmiş Aytac Əliyevanın əri ilə altı ilə yaxın münasibətdə olduğunu, sonuncunun boşanaraq Rüfanə Nəbiyeva ilə ailə quracağına dair verdiyi sözə əməl etməməsinə görə A.Əliyevanın ərinə, guya, xəyanət etmək məqsədilə evi tərk etməsi görüntüsü yaratmaq üçün rəfiqəsi Kemale Maksumbekova və 2008-ci il təvəllüdlü azyaşlı oğlu ilə birlikdə cinayət əlaqəsinə girib zərərçəkmiş şəxsin yaşadığı evə gələrək onu oğurlayıb Şəkidə yaşadıqları evə aparılıb saxlanması barədə razılığa gəldikləri müəyyənləşdirilib. Həmçinin Rüfanə Nəbiyevanın Aytac Əliyevanın həyatı və sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə oğurlamasına cəhd etməsinə, daha sonra isə Kemale Maksumbekovanın ümumi razılaşdırılmış niyyətdən kənara çıxaraq Aytac Əliyevanı qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən olunub. Rüfanə Nəbiyeva şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.

Kemale Maksumbekova Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə), 29, 144.2.4-cü (adam oğurluğuna cəhd - zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə) və 170.3-cü (yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə - zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə törədildikdə və ya yetkinlik yaşına çatmayanı cinayətkar qrupa və ya ağır, yaxud xüsusilə ağır cinayətin törədilməsinə cəlb etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

# Bakıdakı 220 kV-luq yarımstansiyaların sayı 7-yə çatdırılır









"Azərenerji" ASC-nin Mətbuat xidmətinin məlumatına görə, Bakı şəhərində sistem əhəmiyyətli 220 kilovoltluq yarımstansiya tikilir.

Bununla da Bakı şəhərinin elektrik enerji təchizatında birbaşa əhəmiyyət kəsb edən 220 kV-luq yarımstansiyaların sayı yeddiyə çatdırılır. Belə ki, 1932-ci ildə tikilən və istismar müddətini bitirən, ən qədim yarımstansiyalardan biri olan 110/35/6 kV-luq "Qala" yarımstansiyası sökülüb, gərginlik sinfi 220/110/35/6 kilovoltluq gərginlik sinfinə keçirilərək yenidən inşa edilir. "Azərenerji"nin balansında olan yarımstansiyada yeni 220 kilovoltluq gərginlik sinfi yaradılmaqla yanaşı, 110 kilovoltluq paylayıcı qurğu açıq, 35 və 6 kilovoltluq paylayıcı qurğular isə qapalı şəkildə tam yenidən qurulur. Yarımstansiyanın ümumi gücü 150 meqavolt amperdən 550 meqavolt amperə qaldırılır. Rəqəmsal qaydada yenidən qurulan yarımstansiyada yeni idarəetmə mərkəzi tikilir.

"Azərenerji"nin ictimaiyyətlə əlaqələr mərkəzinin rəisi Teymur Abdullayevin sözlərinə görə, burada yerli SCADA, əks-qəza, mühafizə-avtomatika, sabit və dəyişən cərəyan qurğuları ilə təchiz olunmuş idarəetmə sistemləri yaradılacaq, aktivlərin, proseslərin idarə edilməsi, qüsurların vaxtında aradan qaldırılması, açılıb-qoşulma əməliyyatları proqram təminatı vasitəsilə avtomatik həyata keçiriləcək.

Yarımstansiyanın 220 kilovoltluq ötürücü şəbəkə ilə əlaqələndirilməsi üçün 220 kilovoltluq 3-cü "Hövsan" və 4-cü "Zabrat" hava xətlərinin giriş-çıxış sxemi ilə qoşulması və "Şimal" Elektrik Stansiyasından 220 kV-luq ikidövrəli elektrik xəttinin çəkilməsi nəzərdə tutulub. "Azərenerji" tərəfindən bu yarımstansiyanın yenilənməsi ilə "Şimal" Elektrik Stansiyasında istehsal olunan enerjinin etibarlı ötürülməsinə, ötürücü sistemin optimal yük rejiminə, istehlakçıların daha keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsinə, eləcə də texniki itkilərin azaldılmasına nail olunacaq.


## OXUCULARIN NƏZƏRİNƏ!
## "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## "Azərişıq" ASC Ağdam şəhərinin ilkin mərhələdə elektrik təchizatının təmin olunması məqsədilə 2 (iki) ədəd (TM №1 və TM №2) 35/0,4 kV-luq 4x2500 kVA gücündə transformator məntəqəsinin tikintisi, avadanlıqların quraşdırılması və 35 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması məqsədilə

### *təkliflər sorğusu elan edir*

Təkliflər sorğusunda iştirak etmək istəyənlər 500 (beş yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Mirzəağa Əliyev küçəsi, 130 ünvanından ala bilərlər.

**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Maraqlanan şəxslər (+994 12) 440-39-93; daxili (92-19) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Əlaqələndirici şəxs: Namiq Heybətov, namiq.heybetov@azerishiq.az.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 30 mart 2022-ci il saat 12:00-a qədər qəbul olunur. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 31 mart 2022-ci il saat 12:00-da Mirzəağa Əliyev küçəsi, 130 ünvanında, "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərişıq" ASC Zəngilan rayonu ərazisində "Ağıllı kənd" layihəsi əsasında yenidənqurma işləri aparılmış Ağalı kəndinin (Birinci Ağalı, İkinci Ağalı və Üçüncü Ağalı kəndləri ilə birlikdə) ("Ağıllı kənd") xarici elektrik təchizatı məqsədilə 35 kV-luq ikidövrəli ÖİN kabel xəttinin çəkilməsi işlərinin satın alınması üzrə

### *təkliflər sorğusu elan edir*

"Azərişıq" ASC-nin Zəngilan rayonu ərazisində "Ağıllı kənd" layihəsi əsasında yenidənqurma işləri aparılmış Ağalı kəndinin (Birinci Ağalı, İkinci Ağalı və Üçüncü Ağalı kəndləri ilə birlikdə) ("Ağıllı kənd") xarici elektrik təchizatı məqsədilə 35 kV-luq ikidövrəli ÖİN kabel xəttinin çəkilməsi işlərinin satın alınması ilə bağlı "Təkliflər sorğusu" həyata keçirilir. İddiaçılar təkliflərini möhürlənmiş qaydada ikiqat zərflərdə 30.03.2022-ci il saat 12:00-a qədər "Azərişıq" ASC-nin Tender komissiyasına təqdim etməlidirlər. Zərflər 31.03.2022-ci il saat 15:00-da aşağıda qeyd olunan ünvanda açılacaqdır. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

**LOT 1 -** Zəngilan rayonu ərazisində "Ağıllı kənd" layihəsi əsasında yenidənqurma işləri aparılmış Ağalı kəndinin (Birinci Ağalı, İkinci Ağalı və Üçüncü Ağalı kəndləri ilə birlikdə) ("Ağıllı kənd") xarici elektrik təchizatı məqsədilə 35 kV-luq ikidövrəli ÖİN kabel xəttinin çəkilməsi işlərinin satın alınması.

**İştirak haqqı - 750 (yeddi yüz əlli) manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.
Əlaqələndirici şəxs: Namiq Heybətov
Əlaqə telefonu: (012) 440 39 93, (daxili: 92-19).

**Elektron poçt: namiq.heybetov@azerishiq.az**
**Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi, 130, AZ1009**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### Dənizçi MTK-nın balansında olan yüksəkmərtəbəli yaşayış binalarında qazanxanaya avadanlıqların quraşdırılması və avtomatika sisteminin yığılması xidmətlərinin (mal-material və işçilik birlikdə) satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 30 mart 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin struktur idarələrinə tələb olunan kranlara illik texniki xidmətlərin satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 mart 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## "ERA" ATSC-nin səhmdarlarının nəzərinə

"ERA" Açıq Tipli Səhmdar Cəmiyyəti səhmdarlarını 17 may 2022-ci il saat 11:00-da keçiriləcək ümumi yığıncağına dəvət edir.

Gündəlikdəki məsələlər:

1. " ERA" ATSC-nin 2021-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatı.
2. Digər təşkilati məsələlər.

**Ünvan: İ.Abışov 20/94**

***Rəhbərlik***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızına anası

**VƏZİRƏ HƏSƏNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisinın Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və komitənin üzvləri Milli Məclisin deputatı Məlahət İbrahimqızına anası

**VƏZİRƏ HƏSƏNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyevə atası, AMEA-nın müxbir üzvü

**ZƏHMƏT MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və komitə üzvləri Səttar Möhbalıyev, Ziyad Səmədzadə, Jalə Əliyeva, Rauf Əliyev, Sevinc Hüseynova, Vüqar Bayramov, Aqil Məmmədov, İlham Məmmədov, Soltan Məmmədov, Əziz Ələkbərov, Arzu Nağıyev və Milli Məclis Aparatının əməkdaşları İlahə Mehrəliyeva, Elşən Cəfərov, Hüseyn Əliyev Milli Məclisin Əmək və sosial siyasət komitəsi sədrinin müavini Məlahət İbrahimqızına anası

**VƏZİRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi meliorasiya və su təsərrüfatı sahəsində uzun müddət işləmiş

**NURƏDDİN HƏSƏN OĞLU ALQAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları Məhəmməd Məmmədova atası

**ƏSABƏLİ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Müstəqim Məmmədov, Xəyyam Nəsibov və Bədirxan Rzayev tələbə yoldaşları, Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru Şaiq Əsgərova qardaşı

**ELMAN ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi inzibati və təşkilati məsələlər üzrə prorektor, dosent Şaiq Əsgərova qardaşı

**ELMAN ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Akademik Mehdi Mehdizadə (keçmiş M.Qorki) adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılış 10a sinfinin məzunları sinif yoldaşları Aygün Baxşəliyevaya atası

**HÜMBƏT HƏSƏN OĞLU ABDULƏZİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Fidan Asim qızı Qədirlinin adına verilmiş AA2085145 nömrəli şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5683
Sifariş 691
Qiyməti 40 qəpik